

# QANUNÇULUQ

HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı



№ 01 - yanvar 2019



Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.

Heydər ƏLİYEV,
Azərbaycan xalqının ümummilli lideri



Əminəm ki, ədliyyə və məhkəmə orqanları hüquqi dövlət quruculuğu istiqamətində səylərini bundan sonra da davam etdirəcək və qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# QANUNÇULUQ
## hüquq jurnalı

**№ 01 - yanvar 2019**



TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**

REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**





**Qaynar xətt**
**539-76-75**


# Mündəricat



## RƏSMİ MƏLUMAT


Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib ....................4
Regionların sosial-iqtisadi inkişafı diqqət mərkəzindədir ....................6
49-cu Davos Dünya İqtisadi Forumu ....................8
Dünya Bankının baş icraçı direktoru ilə görüş ....................9
"CISCO" şirkətinin icraçı vitse-prezidenti ilə görüş ....................11
Qanlı 20 Yanvar faciəsinin 29-cu ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ümumxalq ziyarəti ....................12




## ƏDLİYYƏ XƏBƏRLƏRİ


Ədliyyə işçiləri şəhidlərimizin xatirəsini ehtiramla yad ediblər ....................14
Səudiyyə Ərəbistanı ilə uğurlu əməkdaşlıq edilir ....................15
Beynəlxalq antikorrupsiya fəaliyyətində Azərbaycan mühüm rol oynayır ....................18
Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının İllik Konfransında Azərbaycan Respublikasının ədliyyə naziri, Assosiasiyanın vitse-prezidenti Fikrət Məmmədovun çıxışı ....................21
Məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə ardıcıl tədbirlər davam etdirilir ....................25
Ədliyyə naziri Ağdaşda vətəndaşları qəbul edib ....................26
Ədalət mühakiməsinin səmərəliliyinin artırılması diqqət mərkəzindədir ....................27
Məhkəmə fəaliyyətinə dair qanunvericiliyin yeni müddəaları öyrənilir ....................28
Ötən ilin yekunlarına həsr olunmuş müşavirələr keçirilib ....................30
Ədliyyə Akademiyasının məlumatları ....................34

## YENİ QANUNLAR, FƏRMANLAR...

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 18 dekabr tarixli 1396-VQD nömrəli Qanunu ........ 36

"Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 18 dekabr tarixli 1397-VQD nömrəli Qanunu ........ 36

"Məhkəmələr və hakimlər haqqında", "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" və "Notariat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1405-VQD nömrəli Qanunu ........ 38

"Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 17 yanvar 479 nömrəli Fərmanı ........ 39

"Azərbaycan Respublikasında 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 yanvar tarixli 886 nömrəli Sərəncamı ........ 42

"Qanunçuluq" jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb səhifələnmiş, "Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
"Ədliyyə Nəşriyyat Evi" MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: "Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail
filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x
Sifariş:1826 Tiraj:1100 ədəd



# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib

**Yanvarın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.**

Prezident İlham Əliyev 2018-ci ilin ölkəmiz üçün uğurlu olduğunu, dünyada və bölgədə gedən mənfi proseslərə baxmayaraq, Azərbaycanın hərtərəfli və dinamik inkişaf etdiyini bildirib. Ötən il regionların sosial-iqtisadi inkişafı ilə bağlı üçüncü beşillik proqramın başa çatdığını, bu il dördüncü proqramın qəbul olunacağını, keçən il bölgələrə 24 dəfə səfər etdiyini deyən dövlətimizin başçısı ölkəmizdə ictimai-siyasi vəziyyətin sabit olduğunu, xarici siyasət sahəsində də bir sıra uğurların əldə edildiyini, bizimlə əməkdaşlıq

etmək istəyən ölkələrin sayının artdığını qeyd edib, Ermənistan istisna olmaqla qonşu ölkələrlə əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayıb. Dövlətimizin başçısı Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanan Tərəfdaşlıq Prioritetləri sənədinin əhəmiyyətini qeyd edib, Azərbaycanın bu ildən Qoşulmama Hərəkatına sədrlik edəcəyini, Xəzər dənizinin hüquqi statusu ilə bağlı imzalanan Konvensiyada ölkəmizin mövqeyinin əksini tapdığını söyləyib.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən danışarkən dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq. Prezident İlham Əliyev onu da qeyd edib ki, 2018-ci ildə hərbi sahədə böyük nailiyyətlər qazanılıb, uğurlu Naxçıvan əməliyyatı nəticəsində 11 min hektar torpağa tam nəzarət olunur. Dövlətimizin başçısı xüsusi vurğulayıb ki, 2018-ci ildə üçüncü peykimiz orbitə buraxılıb, Cənub Qaz Dəhlizinin rəsmi açılışı olub, TANAP layihəsi işə düşüb, Ələt Beynəlxalq Ticarət Limanı fəaliyyətə başlayıb. 2018-ci ili həm də dərin islahatlar dövrü kimi xarakterizə edən ölkə Prezidenti əsas iqtisadi göstəriciləri diqqətə çatdırıb. Ötən il ümumi daxili məhsul 1,4 faiz artıb. Qeyri-neft sektoru 1,8, sənaye istehsalı 1,5, kənd təsərrüfatı isə 4,6 faiz artıb. Valyuta ehtiyatları 45 milyard dollara çatıb, ölkədə 118 min daimi iş yeri yaradılıb.

Sonra maliyyə naziri Samir Şərifov, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev 2018-ci ildə görülən işlər və qarşıda duran vəzifələr haqqında məruzə ediblər.

Yekun nitqində 2019-cu ildə qarşıya qoyulan vəzifələrin icra olunacağına əminliyini ifadə edən Prezident İlham Əliyev bildirib ki, vergi və gömrük sahəsində aparılan islahatlar çox böyük əhəmiyyət daşıyır. Dövlətimizin başçısı həmin sahələrdə şəffaflığın, dürüstlüyün təmin edildiyini, korrupsiyaya qarşı güclü mübarizənin aparıldığını, sağlamlaşdırma prosesinin getdiyini və artıq gözəl nəticələrin əldə edildiyini vurğulayıb.

İndi struktur islahatının gözlənildiyini bəyan ölkə rəhbəri diqqətə çatdırıb ki, idarəetmədə struktur köhnəlib. Yeni idarəetmə strukturu



olmalıdır - daha çevik, daha yığcam, daha məqsədyönlü. Çünki illər boyu yeni qurumlar yaranır. Onlar yarananda o qədər də hiss olunmur. Biri orada, biri burada yarandı, bir agentlik, bir xidmət yarandı. Sonra da baxanda görürük ki, bizim idarəetmə strukturumuz böyük dərəcədə şişirdilib. İndi dünyada əks proses gedir - idarəetmə daha yığcam, çevik, daha da məqsədyönlü və az işçi ilə böyük iş görmək üçün. Amma bizdə idarəetmə sistemi şişir. Buna son qoyulmalıdır. Ona görə struktur islahatı, kadr islahatı aparılmalıdır. Hər bir sahədə o sahəyə rəhbərlik edən şəxslər mütləq maksimum səmərə ilə işləməlidirlər.

Bununla yanaşı, cari ildə infrastruktur layihələrinin icra ediləcəyini deyən Prezident İlham Əliyev qazlaşdırma, içməli su təminatı, kənd və magistral yolların salınması, meliorativ tədbirlərin görülməsi, məcburi köçkünlərin, şəhid ailələri və Qarabağ əlillərinin, həmçinin hərbçilərin sosial şəraitinin yaxşılaşdırılması ilə bağlı tədbirlərin həyata keçiriləcəyini vurğulayıb.

Eyni zamanda yeni məktəblərin, tibb müəssisələrinin, olimpiya idman komplekslərinin, "ASAN xidmət" mərkəzlərinin, xalça fabriklərinin tikiləcəyini deyən Prezident İlham Əliyev sahibkarlığın inkişafı ilə bağlı əlavə addımların atılacağını, xaricdə yeni ticarət evlərinin açılacağını qeyd edib, ölkədə yeni sənaye parklarının və məhəllələrinin yaradılmasının əhəmiyyətinə toxunub, kənd təsərrüfatında, həmçinin turizm sahəsində islahatların nəticə verəcəyinə əmin olduğunu bildirib.

Sonda Prezident İlham Əliyev böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyini nəzərə alaraq 2019-cu ili "Nəsimi İli" elan edib.

# Regionların sosial-iqtisadi inkişafı diqqət mərkəzindədir

**Yanvarın 29-da "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfrans keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak edib.

Konfransda giriş nitqi ilə çıxış edən dövlətimizin başçısı regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramının artıqlaması ilə icra olunduğunu bildirib, son 15 ildə yerinə yetirilmiş işlərə nəzər salıb. Qeyd edib ki, ötən dövrdə ümumi daxili məhsul 3,3 dəfə, sənaye istehsalı 2,6 dəfə, ixracımız 4,7 dəfə artıb. Valyuta ehtiyatlarımız 24 dəfə çoxalaraq bu gün 45 milyard dollar təşkil edir. Azərbaycana təxminən 250 milyard dollar sərmayə qoyulub və bu sərmayənin yarısı xarici investisiyadır.

Azərbaycanın Dünya Bankının "Doing Business" hesabatında dünya miqyasında 25-ci yerə qalxdığını deyən ölkə Prezidenti son 15 ildə 2 milyon yeni iş yerinin yaradıldığını, əhalinin sayının isə 1,6 milyon çoxaldığını diqqətə çatdırıb. Eyni zamanda bildirib ki, kənd təsərrüfatı 1,7 dəfə, maaşlar 7, pensiyalar 9 dəfə artıb, 3.200-dən çox məktəb, 640 tibb müəssisəsi əsaslı təmir edilib və ya yenidən tikilib, bölgələrdə 44 olimpiya mərkəzi yaradılıb. Yüzdən çox köçkün şəhərciyi tikilib, köçkünlərə təqdim edilib. Şəhid ailələri, müharibə veteranları, müharibə əlillərinə 6650 mənzil təqdim olunub. Güzəştli şərtlərlə sahibkarlara verilən kreditlərin məbləği 2 milyard manatı ötüb.

Son vaxtlar sənaye parklarının fəaliyyətə başlaması, aqroparkların yaradılması geniş vüsət alıb. 40 sənaye parkı, 17 aqropark fəaliyyətdədir.

Bu illər ərzində Azərbaycanın kosmik dövlətə çevrildiyini vurğulayan dövlətimizin başçısı qeyd edib ki, artıq üç peykimiz var və Azərbaycan nadir ölkələrdəndir ki, kosmik kluba daxil olubdur. İnnovasiyalara gəldikdə, dünyada Azərbaycan




məhsulu kimi tanınan "ASAN xidmət" brendini qeyd edən Prezident İlham Əliyev ölkəmizdə on beş "ASAN xidmət" mərkəzinin yaradıldığını, bu ilin sonuna qədər onların sayının 20-yə çatacağını söyləyib. Bildirib ki, bu mərkəzlərə 26 milyondan çox müraciət olunub. Əhali tərəfindən bəyənmə əmsalı təxminən 100 faizdir. "ASAN xidmət"də iki yüzdən çox xidmət göstərilir, tam şəffaf və heç bir pozuntusuz.

Bununla yanaşı, 31 yeni elektrik stansiyasının tikildiyi, 2500 meqavatlıq yeni güclərin yaradıldığı, təbii qaz ilə təminatın 95 faizə, içməli su ilə təminatın isə 70 faizə yüksəldiyi, 15 min kilometr avtomobil yolunun tikildiyi diqqətə çatdırılıb.

Sonra Neftçala Sənaye Məhəlləsində "Xəzər" avtomobil zavodunun direktoru Emin Axundov, Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov, "Naxçıvan Bağları" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Elçin Bağırov, Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov, Ağstafa rayonundakı "Saloğlu" mebel firmasının direktoru Tacəddin Mustafayev, Masallı Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov, İmişli rayonundakı "Muğan Aqroservis" iri toxumçuluq təsərrüfatının direktoru Rəcəb Orucov, Qusar Rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov, "Hacıqabul Quşçuluq" MMC-nin direktoru Nemət Babaşov çıxış ediblər.

Konfransa yekun vuran



dövlətimizin başçısı İlham Əliyev bildirib ki, qarşıdakı dövrdə infrastruktur layihələrin icrası, yeni elektrik stansiyalarının tikintisi, qazlaşdırma, içməli su və meliorativ tədbirlərin görülməsi, yeni avtomobil yollarının salınması davam etdirilməlidir.

Bununla yanaşı, sosial infrastruktur layihələrinin icrası, məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, şəhid ailələrinin və müharibə əlillərinin evlərlə təminatı diqqət mərkəzində saxlanılmalıdır.

İş yerlərinin yaradılmasının prioritet məsələlərdən olduğunu söyləyən ölkə Prezidenti sahibkarlara tövsiyə edib ki, iş yerlərini ixtisar etməsinlər. İş yerlərini qorumalıyıq - həm dövlət qurumlarında, həm özəl sektorda. Dövlət qurumlarında aparılan struktur islahatları, - bütün dövlət qurumlarına artıq bildirilib, - iş yerlərinin ixtisarına gətirib çıxarmamalıdır. Bu struktur islahatları, sadəcə olaraq, idarəetmə mexanizminin təkmilləşməsinə yönəlib.

Onu da diqqətə çatdırıb ki, yerli icra orqanları vətəndaşlara daim diqqət və qayğı göstərməlidirlər. Yaddan çıxarmamalıdırlar ki, onlar vətəndaşlar üçün çalışırlar, vətəndaşlara xidmət edirlər. Bütün dövlət məmurları - Prezidentdən başlayaraq lap aşağı səviyyəli məmura qədər hər kəs bilməlidir ki, bizim əsas vəzifəmiz xalqa xidmət etməkdir. Yerli icra orqanları diqqətli olmalıdırlar, problemləri həll etməlidirlər. Hansı problemləri özləri həll edə bilmirlərsə, mərkəzi icra orqanlarına, Prezident Administrasiyasına məlumat verməlidirlər ki, biz problemləri operativ qaydada həll edək. Biz problemləri həll edə bilərik və əlbəttə ki, buraxılan nöqsanlar tamamilə aradan qaldırılmalıdır.

Regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramının yerlərdən gələn xahişlər və təşəbbüslər əsasında formalaşdığını bildirən dövlətimizin başçısı burada kənd təsərrüfatının və sənayeləşmənin xüsusi yer tutduğunu, sahibkarlığın inkişafına verilən dəstəyin daha da artırılmasının, neft-qaz və qeyri-neft sektorunun, o cümlədən ipəkçiliyinin və heyvandarlığın inkişafının, yeni xalça fabriklərinin və meyvə-tərəvəz müəssisələrinin, iri fermer təsərrüfatlarının açılmasının diqqətdə saxlanıldığını vurğulayıb.

Bununla yanaşı, ənənəvi kənd təsərrüfatı sahələrinin, turizmin daha da inkişaf etdirilməsi, ekoloji vəziyyətin yaxşılaşdırılması ilə bağlı tapşırıqlarını verən Prezident İlham Əliyev 4-cü Dövlət Proqramının da artıqlaması ilə icra ediləcəyinə, ölkəmizin inkişaf, tərəqqi və qələbələr yolu ilə gedəcəyinə əminliyini bildirib.

# 49-cu Davos Dünya İqtisadi Forumu

**Yanvarın 22-də İsveçrənin Davos şəhərində dünyanın aparıcı siyasətçilərinin, iş adamlarının, ekspertlərinin iştirakı ilə 49-cu Dünya İqtisadi Forumu keçirilib. 110 ölkənin 3 mindən çox təmsilçisinin qatıldığı forumun əsas şüarı "Qloballaşma 4.0: 4-cü Sənaye İnqilabı dövründə yeni arxitekturanın yaradılması" olub.**

Fəaliyyəti dövründə bu mötəbər tədbir yalnız iki dəfə Davosdan kənarda - ABŞ-dan başqa, yalnız Azərbaycanda - Bakı şəhərində keçirilib. Azərbaycana göstərilən bu yüksək etimad həm də ölkə rəhbərinin Dünya İqtisadi Forumunda fəal iştirakı, maraqlı və strateji əhəmiyyət kəsb edən mülahizələrlə zəngin çıxışları, keçirdiyi çoxsaylı və yüksək səviyyəli işgüzar görüşlərin nəticəsi kimi qəbul olunmalıdır.

Azərbaycan Prezidenti İlham Əliyevin iştirak etdiyi bu dəfəki Forumda aktual qlobal hadisələrə həsr olunan müzakirələr aparılıb. Azərbaycan Prezidenti tədbirin gedişində bir çox beynəlxalq şirkət və dövlət, hökumət başçıları ilə görüşlər keçirib, tərəflər üçün əhəmiyyətli məsələlər müzakirə olunub. Dövlətimizin başçısı Davosda "Rossiya 1" və Çinin CGTN televiziya kanallarına müsahibələr də verib.




Forum çərçivəsində Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva "Bir kəmər, bir yol" təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı" mövzusunda sessiyada iştirak edib. Dövlətimizin başçısı sessiya zamanı Azərbaycanın reallaşdırdığı layihələrdən, infrastrukturdan söz açıb, müasir infrastrukturun yaradılmasının Azərbaycan hökumətinin ən əsas məqsədlərindən biri olduğunu vurğulayıb, dövlətimizin coğrafi vəziyyətdən faydalanaraq əsasən infrastruktura, yəni daxili infrastruktura və Azərbaycanın beynəlxalq hablardan birinə çevrilməsinə imkan verəcək infrastruktura sərmayə yatırmaqla doğru iş gördüyünü diqqətə çatdırıb. Bildirib ki, Azərbaycanın təkcə başqa ölkələrə investisiya yatırmaq yox, həm də infrastruktura, real iqtisadiyyata sərmayə yatırmaq strategiyası var.

Sessiya zamanı dövlətimizin başçısı auditoriyanın suallarını cavablandırıb, tədbirin digər iştirakçıları da mövzu ilə bağlı müzakirələrdə iştirak ediblər.

Beləliklə, 13-cü dəfə Davosda Azərbaycan həqiqətlərini dünyaya bəyan edən Prezident İlham Əliyev 2019-cu ildə də bir daha dünyanın beyin mərkəzlərinin, tanınmış şirkətlərinin diqqətini Azərbaycana yönəldib.

## DÜNYA BANKININ BAŞ İCRAÇI DİREKTORU İLƏ GÖRÜŞ

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda Dünya Bankının baş icraçı direktoru xanım Kristalina Georgiyeva ilə görüşüb.**

Görüşdə xanım Kristalina Georgiyeva Prezident İlham Əliyevi ölkədə aparılan uğurlu islahatlar və Azərbaycanın Dünya Bankının "Doing Business 2019" hesabatında 25-ci yerə yüksəlməsi münasibətilə təbrik edib. Bildirib ki, bu, Dünya Bankının "Doing Business" reytinqinin tarixində ən uğurlu və böyük nailiyyətlərdən biridir. O, bu uğurlu islahatların bundan sonra da davam etdirilməsinin önəmini vurğulayıb.

Azərbaycan ilə əməkdaşlıqdan məmnunluğunu bildirən xanım Kirstalina Georgiyeva qeyd edib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi struktur və iqtisadi islahatların əhəmiyyəti son illər dünyada iqtisadi artım sürətinin azalması fonunda daha da artmaqdadır. Bildirib ki, Dünya Bankı Azərbaycanda reallaşdırılan iqtisadi siyasəti və islahatları



dəstəkləyir. Bu islahatlar Azərbaycanda iqtisadiyyatın davamlı inkişafına, yeni iş yerlərinin yaranmasına mühüm dəstək verəcək.

Dünya Bankının baş icraçı direktoru Azərbaycanın Beynəlxalq Yenidənqurma və İnkişaf Bankında, həm də Beynəlxalq Maliyyə Korporasiyasında səhmdarı olduğu institutlarda öz səhmlərinin artırılması məsələsinin nəzərdən keçirilməsini təklif edib. Bildirib ki, bu, Azərbaycanın gələcək iqtisadi inkişafına Dünya Bankı tərəfindən əlavə dəstək göstərilməsinə kömək edə bilər.

Xanım Kristalina Georgiyeva Beynəlxalq İnkişaf Assosiasiyası tərəfindən yoxsul ölkələrə dəstək proqramına Azərbaycanın donor ölkə kimi qoşulmasını təklif edib. O, Azərbaycanın iqtisadi transformasiyasının dünyada Çin, Hindistan kimi ölkələrlə yanaşı, ən uğurlu təcrübələrdən biri olduğunu bildirib. Qeyd edib ki, Azərbaycan vaxtilə Dünya Bankından yardım alan ölkədən qısa müddətdə donor ölkəyə çevrilib. Bu da son iyirmi ildə Azərbaycanda bütün sahələrdə həyata keçirilən islahatların nəticəsində mümkün olub.

Prezident İlham Əliyev Dünya Bankı ilə əməkdaşlıqdan razılığını ifadə edib və bankın daim Azərbaycana lazımi dəstək göstərdiyini vurğulayıb. Dövlətimizin başçısı Dünya Bankı ilə əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini bildirib, Azərbaycanın əldə etdiyi uğurların "Doing Business 2019" hesabatında əks olunmasından məmnunluğunu vurğulayıb, bu göstəricilərin daha da yaxşılaşdırılması ilə bağlı xüsusi komissiyanın yaradıldığını söyləyib. Qeyd edib ki, "Doing Business 2019" hesabatında Azərbaycanın 32 pillə irəliləyərək 25-ci yerdə qərarlaşması həyata keçirilən çox vacib islahatlar nəticəsində mümkün olub. Dövlətimizin başçısı bunu böyük uğur kimi dəyərləndirib, Azərbaycanın iqtisadi sahədə əldə etdiyi uğurlara verilən yüksək qiymətə görə təşəkkürünü bildirib.

Söhbət zamanı Dünya Bankı tərəfindən Azərbaycanda yeni proqramların həyata keçirilməsi məsələsi müzakirə olunub.

Dövlətimizin başçısı, xüsusilə məhkəmə sahəsində Dünya Bankı ilə birgə həyata keçirilən islahatları yüksək dəyərləndirib, məhkəmə sistemində innovativ yeniliklərin tətbiqində və bu sistemin avtomatlaşdırılmasında bankın iştirakını və Ədliyyə Nazirliyi tərəfindən bu layihənin reallaşdırılmasındakı uğurları məmnunluqla qeyd edib. Prezident İlham Əliyev bu uğurlu əməkdaşlığın digər sahələrdə də həyata keçirilməsinin vacibliyini vurğulayıb.

Dövlətimizin başçısı qeyd edib ki, vergi, gömrük, icbari tibbi sığorta sahələrində Dünya Bankı ilə əməkdaşlıq layihələri hazırlanıb. Bu layihələrin uğurla həyata keçirilməsi üçün imkanlar var və hər iki tərəf bu imkanlardan yararlanmalıdır.

Görüşdə qeyd olunub ki, Dünya Bankının bu sahədəki fəaliyyəti Azərbaycandakı özünüməşğulluq layihələrinin genişlənməsində, xüsusilə məcburi köçkünlərin özünüməşğulluğunun artırılmasına dair proqramlarda faydalı ola bilər. Buna görə də hər iki tərəfin aidiyyəti qurumları bu sahədə yeni proqramlar hazır-

layıb uğurla həyata keçirə bilər.

Dövlətimizin başçısı Azərbaycanın Dünya Bankı qrupuna daxil olan institutlarda səhmlərinin artırılması və Beynəlxalq İnkişaf Assosiasiyasının həyata keçirdiyi yoxsul ölkələrə yardım proqramlarında donor kimi çıxış etmək məsələləri barədə yekun qərarların qəbul olunması üçün müvafiq arayışların təqdim edilməsinə dair aidiyyəti qurumlara tapşırıqlar verib.

## "CISCO" şirkətinin icraçı vitse-prezidenti ilə görüş

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda "CISCO" şirkətinin icraçı vitse-prezidenti və satış rəhbəri xanım Gerri Elliott ilə görüşüb.**



Görüşdə Gerri Elliott Azərbaycanın müxtəlif dövlət qurumları ilə əməkdaşlıqdan məmnunluğunu bildirib. Qeyd edib ki, Azərbaycan regionda şirkətin əməkdaşlıqda maraqlı olduğu ən mühüm dövlətlərdən biridir. Gerri Elliott "CISCO" şirkətinin layihələrinə göstərdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib. O, hər bir dövlətin inkişafı üçün lazım olan üç əsas istiqaməti Azərbaycanda müşahidə etdiklərini vurğulayıb. Bu baxımdan Azərbaycanda islahatların aparılması üçün bacarıqlı liderin olmasını, konkret inkişaf planlarının mövcudluğunu, bu planların reallaşdırılmasını və dövlətin inkişafını təmin edəcək əsas amillərdən biri kimi inkişaf planlarında göstərilən hədəflərə çatmaq üçün məsul qurumların müəyyənləşdirilməsinin Azərbaycanın inkişafında əsas amillər olduğunu qeyd edib.

Xanım Gerri Elliott Azərbaycan Hökuməti, xüsusilə Ədliyyə Nazirliyi ilə məhkəmələrin, cəzaçəkmə müəssisələrinin inteqrasiyası, bu sahədə elektron xidmətlərin səviyyəsinin daha da artırılması istiqamətlərində sıx əməkdaşlıq etdiklərini vurğulayıb. O, "CISCO"nun Azərbaycanın iqtisadi inkişafın müxtəlif istiqamətləri üzrə həyata keçirdiyi siyasətə dəstək verməyə hazır olduğunu ifadə edib və Azərbaycan hökuməti ilə sıx əməkdaşlığa görə minnətdarlığını bildirib.

Prezident İlham Əliyev "CISCO" şirkəti ilə əməkdaşlıqdan məmnunluğunu vurğulayıb. Dövlətimizin başçısı şirkətin Azərbaycanın aidiyyəti qurumları ilə məhsuldar əməkdaşlığından razılığını bildirib. Prezident İlham Əliyev bu əməkdaşlığın Azərbaycanın müəyyən etdiyi proqram və planların həyata keçirilməsində, şəffaflığın artırılmasında və digər elektron xidmətlərin inkişafında əhəmiyyətini qeyd edib.

# Qanlı 20 Yanvar faciəsinin 29-cu ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ümumxalq ziyarəti



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin xatirəsini yad ediblər.**

Dövlətimizin başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub. Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycan Respublikasının dövlət himni səslənib.

Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad ediblər.

Şəhidlər xiyabanının ziyarət olunması mərasimində Baş nazir Novruz Məmmədov, Milli Məclisin sədri Oqtay Əsədov və Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev iştirak ediblər.

***

Qara Yanvar hadisələrindən 29 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Təpədən-dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Düz 29 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının ovaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir.

Keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli







torpaqlarımıza iddia edən təcavüzkar Ermənistanı açıq-aşkar dəstəklənməsinə və respublikanın ozamankı rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa qalxmış geniş xalq kütlələrinə qarşı sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciəyə gətirib çıxardı, böyük itkilərlə, günahsız insanların ölümü ilə nəticələndi. Buna baxmayaraq, Azərbaycanın ovaxtkı səriştəsiz, kölə psixologiyalı rəhbərlərinin yenə də xalqla bir olmağa cəsarəti çatmadı və onlar sovet rəhbərliyinin ətəyindən yapışmaqda davam etdilər.

Onlardan fərqli olaraq, həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev həyatını təhlükədə qoyaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gələrək, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da Ulu Öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi.

Əslində, ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə - azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcək.

Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı idi. Keçmiş SSRİ və Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. Həmin gün keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını cinayətkarcasına pozmuşdu.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə yenidən qayıdışından sonra, 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar Ümumxalq Hüzn Günü elan edildi.

Azərbaycan xalqı hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir.

Azərbaycanın azadlığı uğrunda canından keçən şəhidlərin xatirəsi daim əziz tutulduğu kimi, onların ailə üzvləri, əzizləri də hər zaman dövlət qayğısı ilə əhatə olunub. Eləcə də 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin sosial müdafiəsi, pensiya təminatı hər zaman dövlətimizin başçısının diqqətindədir. 20 Yanvar şəhidlərinin ailə üzvləri və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər həyata keçirilib. Şəhid ailələrinin pensiya təminatı, mənzil şəraitinin yaxşılaşdırılması, yaşayış səviyyəsinin yüksəldilməsi ilə bağlı mükəmməl qanunvericilik bazası yaradılıb. Dövlətimizin başçısı bu istiqamətdə sərəncam və fərmanlar verib. Bundan başqa, əlillərin reabilitasiyası üçün respublikada yeni sağlamlıq mərkəzləri inşa olunub. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir.

# Ədliyyə işçiləri şəhidlərimizin xatirəsini ehtiramla yad ediblər





**Azərbaycan xalqının müstəqillik uğrunda mübarizliyinin və şücaətinin təcəssümü olaraq milli qürur mənbəyinə və qəhrəmanlıq salnaməsinə çevrilmiş 1990-cı il 20 Yanvar faciəsindən 29 il ötür. Bəşəriyyətə və insanlığa sığmayan ən ağır cinayətlərdən biri kimi tarixə əbədi həkk olunmuş bu faciəli günlərdə öz ölkəsinin, xalqının azadlığını üçün canlarından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsi daim ehtiramla yad olunur.**

Ümumxalq hüzn günündə ədliyyə işçiləri Şəhidlər xiyabanını ziyarət edərək şəhidlərimizin xatirəsini anıb, məzarları üzərinə tər çiçəklər düzüblər.

Bu hadisələrin ildönümü ilə əlaqədar Ədliyyə Nazirliyində və struktur qurumlarda anma mərasimləri keçirilərək faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, 20 Yanvar hadisələrinə bir daha nəzər salınaraq, xalqımızın müstəqillik yolundan bəhs olunub.

Tədbirlərdə qeyd edilib ki, o müdhiş gecədə keçmiş sovet ordusu Bakıya daxil olaraq dinc sakinlərə amansız divan tutmuş, günahsız insanları vəhşicəsinə qətlə yetirmişdir. Bu qanlı qırğın nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilməmiş, xalqımız qanı bahasına da olsa müstəqilliyinə nail olmuşdur.

Yığıncaqlarda ümummilli lider Heydər Əliyevin faciənin baş verməsindən dərhal sonra Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək bu qanlı hadisəyə qarşı kəskin etirazını bildirməsi və 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra ona dövlət səviyyəsində hərtərəfli və obyektiv hüquqi-siyasi qiymət verilməsi xüsusilə vurğulanıb. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə müstəqilliyimizin möhkəmlənməsi və dövlətimizin hərtərəfli sürətli tərəqqisi qeyd olunub, bu qanlı tarix barədə əsl həqiqətlərin beynəlxalq ictimaiyyətə geniş çatdırılması, həmçinin şəhid ailələrinin və əlillərin sosial müdafiəsinin gücləndirilməsi üzrə məqsədyönlü addımların atıldığı qeyd edilib, şəhidlərimizin əziz xatirəsinin hər bir azərbaycanlının qəlbində əbədi yaşayacağı bildirilib.



Nazirlikdə Qanlı Yanvar faciəsi ilə bağlı kinozalda filmlər, foto-slaydlar nümayiş etdirilib.

# Səudiyyə Ərəbistanı ilə uğurlu əməkdaşlıq edilir



İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud tərəfindən Azərbaycan nümayəndə heyətinin qəbulu

**Ölkəmizdə İslam və ərəb dünyası ilə ikitərəfli münasibətlərin inkişafına xüsusi əhəmiyyət verilir, Səudiyyə Ərəbistanı Krallığı ilə müxtəlif, o cümlədən hüquqi sahədə səmərəli əməkdaşlıq edilir, bu ölkənin hüquqşünaslarından ibarət geniş nümayəndə heyətləri Azərbaycana səfərlər edib, məhkəmə-hüquq islahatlarımıza və müsbət təcrübəmizə maraq göstərilib, həmçinin Krallığın ədliyyə naziri müavininin ötən il respublikamıza səfəri zamanı iki nazirlik arasında əməkdaşlıq haqqında hazırlanmış Anlaşma Memorandumunun layihəsi razılaşdırılıb.**

Həmin sənədin imzalanması məqsədilə Səudiyyə Ərəbistanı Krallığı ədliyyə nazirinin dəvətinə əsasən Azərbay-



Azərbaycan və Səudiyyə Ərəbistanının ədliyyə nazirlərinin görüşü və iki ölkənin Ədliyyə nazirlikləri arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanması





Səudiyyə Ərəbistanı Krallığının Ali Məhkəməsinin sədri və Baş prokuroru ilə görüş



canın ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov, Ali Məhkəmənin sədri Ramiz Rzayev, Ədliyyə Nazirliyi Təşkilat-nəzarət baş idarəsinin rəisi Elçin Qasımov, Qeydiyyat və notariat baş idarəsinin rəisi İlqar Məmmədov və Beynəlxalq əməkdaşlıq idarəsinin rəisi Adil Əbilovdan ibarət nümayəndə heyəti yanvarın 27-31-də Səudiyyə Ərəbistanı Krallığında səfərdə olub.

Səfər zamani İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud Azərbaycan nümayəndə heyətini qəbul edib.

Azərbaycanla əməkdaşlığın inkişafının Səudiyyə Ərəbistanı üçün prioritet olduğunu bildirən Kral, hökumətlərarası komissiyanın səmərəli fəaliyyətini məmnuniyyətlə qeyd edib, bu səfərin ikitərəfli əlaqələrin dərinləşdirilməsinə töhfə verəcəyini, habelə ölkəsinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın haqlı mövqeyini tam dəstəklədiyini vurğulayaraq, regionda sülhün bərqərar olmasında maraqlı olduğunu bildirib.

Ədliyyə naziri F.Məmmədov yüksək diqqətə görə minnətdarlığını bildirərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məktubunu və salamlarını çatdırıb, iki ölkə arasında hərtərəfli münasibətlərin inkişafını qeyd edərək, ədliyyə orqanları arasında da əlaqələrin genişləndirildiyini, habelə ölkəmizdə Krallığın zəngin tarixi və qədim mədəniyyətinə böyük maraq göstərildiyini vurğulayıb.

Kral Salman bin Əbdüləziz Al Səud Azərbaycanın dövlət başçısına salamlarına görə təşəkkür edib, özünün də səmimi salamlarını ölkəmizin Prezidentinə çatdırmağı xahiş edib.

Səfər çərçivəsində Səudiyyə Ərəbistanı Krallığının ədliyyə naziri ilə görüş keçirilərək ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun siyasi iradəsi vurğulanıb, qarşılıqlı fəaliyyətin perspektivləri müzakirə olunub, hər iki dövlətin ədliyyə və məhkəmə sistemləri, Məhkəmə-Hüquq şuralarının fəa-




Ər-Riyad Cəza Məhkəməsinin fəaliyyəti ilə tanışlıq

liyyəti barədə geniş fikir mübadiləsi aparılıb.

Səudiyyə Ərəbistanının ədliyyə naziri Şeyx Dr. Valid bin Muhammad Al-Samaani respublikamızın sürətli tərəqqisi barədə məlumatlı olduğunu bildirib, dövlətimizin başçısının rəhbərliyi ilə aparılan məhkəmə-hüquq islahatlarına və tətbiq olunan innovasiyalara, xüsusilə "Elektron məhkəmə" və "Elektron notariat" informasiya sistemlərinin fəaliyyətinə, vətəndaşlara səyyar və məsafədən notariat xidmətlərinin göstərilməsinə, yenicə işlənilmiş mobil notariat proqramının tətbiqinə böyük maraq göstərərək təqdir edib, bu sahədə ölkəmizin təcrübəsi ilə tanış olmaq barədə niyyətini ifadə edib.

Sonra nazirliklər arasında ədliyyə və məhkəmə sistemlərinin müasirləşdirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi, elektron ədliyyə, elektron məhkəmə, ədliyyə işçilərinin və hakimlərin tədrisi və digər sahələrdə birgə tədbirlərin keçirilməsini nəzərdə tutan əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

Nazirlər bu mühüm sənədin ikitərəfli münasibətlərin inkişafında müstəsna rolunu qeyd edərək, müxtəlif istiqamətlər üzrə qarşılıqlı fəaliyyətin genişlənəcəyinə əminliklərini bildirib, bu sahədə konkret tədbirlər barədə razılığa gəliblər.

Həmçinin nümayəndə heyətimiz Səudiyyə Ərəbistanı Ali Məhkəməsinin sədri və Baş Prokuroru ilə görüşüb, ədalət mühakiməsinin səmərəliliyi, məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması, elektron məhkəmənin tətbiqi, hakimlərin seçimi və tədrisi müzakirə edilib, ikitərəfli əməkdaşlığın genişləndirilməsinə böyük maraq göstərilib, təcrübə mübadiləsi aparılıb.

Eyni zamanda, Səudiyyə Ərəbistanının ən böyük məhkəmələrindən olan, 70-ə yaxın hakimin çalışdığı Ər-Riyad Cəza Məhkəməsinə baş çəkilərək onun fəaliyyəti ilə tanış olunub, nümayəndə heyətimiz üçün məhkəmədə elektron texnologiyaların tətbiqinə dair təqdimat keçirilib.

Eyni zamanda, Səudiyyə Ərəbistanının bölgələrinə səfər edilərək yerli ədliyyə və




Ədliyyə nazirinin səfəri Səudiyyə Ərəbistanı mətbuatında

məhkəmə orqanlarının fəaliyyəti ilə tanış olunub.

Keçirilən bütün görüşlərdə Səudiyyə Ərəbistanı rəhbərliyinin tapşırığına əsasən respublikamızla əməkdaşlığın müxtəlif sahələrdə genişləndirilməsi və müsbət təcrübələrin bölüşülməsi ilə bağlı niyyət ifadə olunub, habelə son illər Azərbaycana səfər edən ərəb turistlərinin sayının artmasının ölkəmizə olan böyük marağın təzahürü olduğu vurğulanıb. Nümayəndə heyətimiz tərəfindən müasir ədliyyə fəaliyyətinə, məhkəmə-hüquq islahatlarına və tətbiq olunan yeniliklərə, habelə Azərbaycanda Səudiyyə Ərəbistanının tarixi və mədəniyyətindən bəhs edən elmi tədqiqatlara dair xüsusi broşürlər təqdim edilib.

Həmçinin həmsöhbətlərin diqqəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin acı nəticələrinə, torpaqlarımızın 20%-nin işğalı və bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi faktına cəlb edilib, Səudiyyə Ərəbistanı Krallığının münaqişənin həllində Azərbaycanın haqlı mövqeyini daim dəstəkləməsi təqdir olunub.

Tədbirlərdə ölkəmizin Səudiyyə Ərəbistanı Krallığındakı səfiri Şahin Abdullayev iştirak edib.

Azərbaycan ədliyyə nazirinin başçılıq etdiyi nümayəndə heyətinin səfəri yerli kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.

# Beynəlxalq antikorrupsiya fəaliyyətində Azərbaycan mühüm rol oynayır

**Dövlət başçısı cənab İlham Əliyevin siyasi iradəsi ilə respublikamızda korrupsiyaya qarşı sərt mübarizə aparılmaqla bu sahədə beynəlxalq əməkdaşlığa mühüm əhəmiyyət verilir, ölkəmiz Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının (IAACA) təşkilatçılarından biri kimi onun işində daim fəal iştirak edir.**

Cari il yanvarın 21-24-də BMT-nin Vyanadakı qərargahında IAACA-nın bir sıra iclasları keçirilib. Tədbirlərdə Azərbaycanı ədliyyə naziri, qurumun vitse-prezidenti Fikrət Məmmədovun başçılığı ilə nümayəndə heyəti təmsil edib. Nümayəndə heyətinin tərkibinə respublika Baş prokurorunun müavini, Korrupsiyaya qarşı mübarizə baş idarəsinin rəisi Kamran Əliyev, habelə nazirliyin və Baş Prokurorluğun məsul şəxsləri daxil olunub.

IAACA-nın rəhbər orqanı olan İcraiyyə Komitəsinin iclasında əsas təşkilati məsələlərə baxılıb, o cümlədən Assosiasiyanın Ümumi Yığıncağı və İllik Konfransının gündəlikləri təsdiq olunub, təşkilatın Azərbaycanın təklifləri nəzərə alınmaqla razılaşdırılmış yeni Konstitusiyası Ümumi Yığıncağın müzakirəsinə çıxarılıb.

Sonra dünyanın 70 dövlətindən 260-dan çox nümayəndənin, o cümlədən prokurorluq, məhkəmə, ədliyyə, ixtisaslaşmış antikorrupsiya orqanlarının, habelə nüfuzlu beynəlxalq təşkilatların rəhbər şəxslərinin, tanınmış hüquqşünasların və alimlərin iştirak etdiyi illik yığıncaqların təntənəli açılış mərasimi keçirilib.

Mərasimdə BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin icraçı direktoru Yuriy Fedotov, IAACA-nın prezidenti, Qətərin baş prokuroru Dr. Ali Al Marri və xüsusi qonaq qismində iştirak edən Malayziyanın Baş naziri Mahathir Məhəmməd çıxış ediblər.

Assosiasiyanın Ümumi Yığıncağında IAACA-nın yeni Konstitusiyası təsdiq edilib, təşkilatın gələcək fəaliyyətinə və antikorrupsiya tədrisinə dair proqramlar qəbul olunub, İcraiyyə Komitəsinin səlahiyyətlərinə dair məsələyə baxılıb.

İllik Konfransda BMT-nin




**Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının (IAACA) İllik Konfransının açılış mərasimi**

Korrupsiyaya qarşı Konvensiyasının qəbul olunmasının 15 illiyi və bu müddət ərzində onun implementasiyası, BMT-nin 2030-cu ilədək Dayanıqlı İnkişaf üzrə Gündəliyində bu sosial bəla ilə mübarizənin rolu, həmçinin antikorrupsiya tədrisi, beynəlxalq əməkdaşlıq və s. bu kimi aktual məsələlər müzakirə olunub.

Qeyd olunmalıdır ki, plenar sessiyada BMT-nin rəsmiləri tərəfindən Azərbaycanın Assosiasiyaya yaradıldığı gündən daim göstərdiyi siyasi və əməli dəstəyi, habelə işinə verdiyi dəyərli töhfələri xüsusi vurğulanıb.

Konfransda ilk məruzə ilə Azərbaycan nümayəndə heyətinin rəhbəri, IAACA-nın vitse-prezidenti F.Məmmədov çıxış edib. Nazir korrupsiyanın ciddi təhlükəsindən danışaraq, BMT statistikasına əsasən onun beynəlxalq aləmə dünya ÜDM-nin 5%-ni təşkil edən 2.6 trilyon dollar ziyan vurduğunu qeyd edib. Çıxışda bu sosial bəlaya qarşı qlobal mübarizə tədbirlərindən, Korrupsiyaya qarşı Konvensiyanın dünyada implementasiyasının nəticələrindən, bu sahədə IAACA-nın mühüm rolundan və səmərəli fəaliyyətindən bəhs edilib, ölkəmizin Assosiasiya ilə fəal əməkdaşlığı qeyd olunub.

Azərbaycanın BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulduğunu və bu sahədə 2030-cu ilədək Gündəlikdən irəli gələn öhdəliklərin icrası ilə bağlı ölkə Prezidentinin Fərmanı ilə yaradılmış və Ədliyyə Nazirliyinin təmsil olunduğu Milli Əlaqələndirmə Şurasının fəaliyyətini qeyd edən nazir korrupsiyaya qarşı mübarizənin vacib hədəflərdən olduğunu, habelə Konvensiyanın implementasiyası ilə bağlı respublikamızda dövlət başçısının siyasi iradəsinə uyğun olaraq həyata keçirilən qəti tədbirləri diqqətə çatdırıb, genişmiqyaslı qanunvericilik və institusional islahatlar barədə məlumat verib, bu sahədə ölkəmizin nailiyyətlərini, o cümlədən ölkə Prezidentinin təşəbbüsü ilə yaradılmış və dünyada böyük marağa səbəb olan Azərbaycan brendi "ASAN xidmət"in müsbət təcrübəsini vurğulayıb.

Eyni zamanda, məhkəmə-



IAACA-nın İcraiyyə Komitəsinin iclası



hüquq islahatlarına toxunularaq məhkəmə sisteminin müstəqilliyinin gücləndirilməsi, bu fəaliyyətdə şəffaflığın artırılması, beynəlxalq aləmdə təqdir olunan hakimlərin ən şəffaf seçim prosesi, İT texnologiyalarla təchiz olunmuş yeni məhkəmə infrastrukturun yaradılması və elektron məhkəmənin tətbiqi üzrə görülən əməli tədbirlərin korrupsiyanın qarşısının alınmasına xidmət etdiyi bildirilib.

Nazir ölkəmizin səmərəli beynəlxalq antikorrupsiya əməkdaşlığını qeyd edərək bu sahədə beynəlxalq təşkilatlarla müxtəlif təşəbbüslərindən danışıb.

Çıxışda tədbir iştirakçılarının diqqəti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə, BMT Təhlükəsizlik Şurasının və digər nüfuzlu beynəlxalq təşkilatların müvafiq qətnamələrinə baxmayaraq Ermənistan tərəfindən torpaqlarımızın 20 faizinin işğalına və bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi faktına xüsusilə cəlb olunub.

Sonra müzakirələr keçirilib. İştirakçılar tərəfindən ölkəmizdə həyata keçirilən islahatlara maraq göstərilərək bu sahədə dövlət dəstəyinin əhəmiyyəti xüsusi vurğulanıb, müvafiq suallar cavablandırılaraq qeyd edilib ki, bütün bu islahatların təməlində və nailiyyətlərin qazanılmasında dövlətimizin güclü siyasi iradəsi dayanır.

Azərbaycan nümayəndə heyətinin üzvləri iclaslarda fəal iştirak edib, K.Əliyev çıxış edərək Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya və rəhbərlik etdiyi İdarə tərəfindən görülən preventiv tədbirlərdən danışıb, bu işdə əsas vasitələrdən biri kimi tədrisin rolundan bəhs edib, göstərilən sahədə beynəlxalq antikorrupsiya treninqləri, o cümlədən ölkəmizin BMT-nin Vyanadakı Ofisi, Beynəlxalq Prokurorlar Assosiasiyası və Avstriyada yerləşən Beynəlxalq Antikorrupsiya Akademiyası ilə səmərəli əlaqələrini qeyd edib.

Yekunda Azərbaycan tərəfinin təklifləri nəzərə alınmaqla korrupsiyaya qarşı mübarizədə səylərin gücləndirilməsinə və antikorrupsiya qurumlarının fəaliyyətinin səmərəliliyinin artırılmasına dair Bəyannamə qəbul olunub.

Səfər çərçivəsində bir sıra dövlətlərin ədliyyə, məhkəmə, prokurorluq və antikorrupsiya orqanlarının rəhbərləri, habelə beynəlxalq təşkilatların rəsmiləri ilə ikitərəfli görüşlər keçirilib, əməkdaşlığa dair faydalı danışıqlar aparılıb, ölkəmiz üçün prioritet olan sahələr üzrə qarşılıqlı fəaliyyətin perspektivləri müzakirə olunub.

Tədbirlərdə ölkəmizin Avstriyadakı səfiri Qalib İsrafilov iştirak edib.

## Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının "BMT-nin Korrupsiyaya qarşı Konvensiyasının 15 ili: nailiyyətlər və perspektivlər" mövzusuna həsr olunmuş İllik Konfransının "2030-cu ilədək BMT-nin Dayanıqlı İnkişaf Gündəliyinin icrasında korrupsiya ilə mübarizənin rolu" adlı ilk plenar sessiyasında Azərbaycan Respublikasının ədliyyə naziri, Assosiasiyanın vitse-prezidenti Fikrət Məmmədovun ingilis dilində çıxışının Azərbaycan dilinə tərcümə olunmuş mətni

**Vyana, Avstriya, 21-24 yanvar 2019-cu il**




Konfransda ədliyyə naziri, IAACA-nın vitse-prezidenti Fikrət Məmmədovun çıxışı

**Hörmətli xanımlar və cənablar,**

İlk növbədə, konfransın yüksək səviyyədə təşkilinə görə BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsinə (UNODC), həmçinin Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının (IAACA) Katibliyinə minnətdarlığımı bildirirəm.

Düşünürəm ki, hamımız gözəl Vyana şəhərində, Assosiasiyanı hər zaman dəstəkləyən BMT-nin Ofisində olmaqdan məmnunuq və bu işdə mühüm töhfələrinə görə UNODC-a və onun Departament rəhbərinə dəyərli dostumuz Dimitriy Vlassisə səmimi təşəkkürümü ifadə etmək istərdim. Həmçinin, IAACA-nın prezidenti, Qətərin Baş prokuroru Dr. Al Marri başda olmaqla qətərli həmkarlarımızın səylərini qeyd etməyi zəruri hesab edirəm. Çox ümidvaram ki, birgə töhfələrimiz sayəsində Vyana konfransı IAACA-nın fəaliyyətinə əlavə təkan verəcəkdir.

**Hörmətli IAACA üzvləri,**

Bu gün buraya toplaşmağımızda əsas məqsəd ən təhlükəli sosial bəlalardan olan korrupsiyaya qarşı daha səmərəli mübarizə aparmaqdır. Qlobal tədqiqatlar və BMT-nin statistikası göstərir ki, hər il şirkətlər və insanlar 1 trilyon dollar rüşvət verirlər. Bütövlükdə isə dünya ÜDM-nin 5%-ni təşkil edən 2,6 trilyon dollar korrupsiyanın bütün formalarına görə yoxa çıxır. Bu səbəbdən neçə-neçə tibb müəssisəsi, məktəb, yaşayış yerləri və digər sosial layihələr üçün maliyyələşmənin çatmamasını nəzərə alsaq, korrupsiyanın vurduğu zərərin miqyasını daha aydın təsəvvür etmək olar.

Məlumdur ki, korrupsiya həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələri sarsıdır, qanunun aliliyinə, iqtisadiyyata və bütövlükdə cəmiyyətə ciddi xələl gətirir. Təəssüf ki, hətta nüfuzlu beynəlxalq təşkilatlar və QHT-lər də bu bəladan sığortalanmamışdır.

BMT-nin baş katibi Antonio Quterreşin qeyd etdiyi kimi, bu məsələ qlobal gündəmdədir və BMT-nin 2030-cu ilədək Dayanıqlı İnkişaf sahəsində Gündəliyinin 16-cı Məqsədində nəzərdə tutulmuşdur. Hə-

min məqsədin həyata keçirilməsində bütün formalarda korrupsiya və rüşvətxorluq hallarını, qanunsuz maliyyə axınlarını əhəmiyyətli dərəcədə azaltmaq, oğurlanmış aktivlərin aşkarlanması və qaytarılması işini gücləndirmək, bütün səviyyələrdə səmərəli, məsuliyyətli və şəffaf qurumlar yaratmaq əsas hədəflərdəndir.

Bildiyimiz kimi, korrupsiya problemi bəşəriyyətin özü qədər qədimdir. Hələ iki min il bundan əvvəl qədim Romada meydana gəlmiş "corrumpere" termini "rüşvət" mənası ilə yanaşı, "dağıtmaq", "məhv etmək" anlayışını da verirdi.

Lakin müasir dünyada korrupsiyanın, əvvəldə bəhs etdiyimiz kimi, miqyası beynəlxalq ictimaiyyəti korrupsiyaya qarşı qlobal Konvensiya (UNCAC) qəbul etməyə sövq etmişdir. UNODC-un baş direktoru Yuri Fedotovun qeyd etdiyi kimi, bu gün həmin sənəd "Korrupsiyaya qarşı yeganə universal hüquqi alətdir və o, 186 dövlət tərəfindən ratifikasiya olunaraq qlobal miqyasda tanınır".

UNCAC korrupsiyanın qarşısının alınması və onunla mübarizə üçün hərtərəfli çərçivəni müəyyən edərək qlobal tədbirlərin görülməsi üçün əsas verir və o, hesabatlılıq, ədalət, şəffaflıq və dayanıqlı inkişafın təmin olunmasına kömək edir.

Bu alət nə qədər mükəmməl olsa da, onun dürüst implementasiyası həlledici rol oynayır. UNCAC-ın uğurlu implementasiyası həm də BMT-nin 2030-cu ilədək Dayanıqlı İnkişaf sahəsində Gündəliyində əks olunan digər əsas hədəflərə nail olunmasına şərait yaradacaq.

Bildiyiniz kimi, məhz bu məqsədlə Konvensiyanın iştirakçı-dövlətlərinin Konfransı yaradılmış və artıq onun 7 sessiyası uğurla keçirilmişdir. Ən əsası isə 2010-cu ildən etibarən dövlətlərə konvensiyanın implementasiyasına kömək edən icmal mexanizmi tətbiq olunmağa başlamışdır. Bu mexanizm beynəlxalq ictimaiyyətə bu bəla ilə mübarizədə mövcud olan qabaqcıl metodların və mövcud problemlərin hərtərəfli təhlilini təqdim edir.

UNODC-un statistik məlumatlarına əsasən icmal 85 faiz hallarda qanunvericilik islahatı təşəbbüslərə gətirib çıxarmış, 3/4 hallarda isə korrupsiyaya qarşı mübarizədə milli səylərə ümumi müsbət təsirini göstərmişdir.

Yeri gəlmişkən, dövlətlərimizin icmaldan bəhrələnməsini nəzərə alaraq UNCAC-ın Katibliyi funksiyasını həyata keçirən UNODC-a səmərəli fəaliyyətinə görə minnətdarlığımızı bildiririk.

Bununla yanaşı, hamıya bəllidir ki, hüquq, əməliyyat-axtarış fəaliyyəti, maliyyə, iqtisadiyyat, mühasibatlıq, sosial elmlər və s. daxil olmaqla müxtəlif sahələrdə bilik və bacarıqları birləşdirən ixtisaslaşdırılmış orqanların yaradılması korrupsiya əleyhinə effektiv mübarizənin təməlidir.

Lakin dünyada korrupsiya əleyhinə qurumların tarixi elə də uzaq deyil. İlk antikorrupsiya bürosu 1952-ci ildə Sinqapurda yaradılsa da, o, 20 il ərzində bu sahədə yeganə orqan olaraq qalmışdır. Növbəti qurum Honkonqun Korrupsiya əleyhinə müstəqil komissiyası olmuşdur, 1990-cı illərdə bu kimi orqanlar bəzi digər ölkələrdə də yaradılmağa başlamışdır. Yalnız UNCAC qüvvəyə mindikdən sonra korrupsiyaya qarşı mübarizə üzrə ixtisaslaşmış orqanlar qlobal vüsət almışlar.

Bilirsiniz ki, "hamıya yaraşan bir rəng yoxdur". Bu atalar sözünü dünya üzrə korrupsiyaya qarşı mübarizə agentliklərinə də aid etmək olar. Buna baxmayaraq beynəlxalq ictimaiyyət tərəfindən bu kimi qurumların müstəqilliyinin, səmərəliliyinin və hesabatlığının təmin olunması üzrə ümumi tələbləri özündə birləşdirən antikorrupsiya təsisatları üçün bir neçə sənədlər, o cümlədən məşhur Cakarta prinsipləri qəbul olunmuşdur.

Bu gənc orqanlar inkişaf etməli, təcrübə toplamalı, qabaqcıl praktikaları bölüşməli, problemlərin həlli yollarını axtarmalı idi. Məhz buna görə IAACA-nın yaradılması ideyası meydana çıxmış və 2006-cı ildə onun təsis konfransı keçirilmişdir. Qeyd olunmalıdır ki,

ölkəmizdə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin qəti siyasi iradəsi ilə korrupsiyaya qarşı sərt mübarizə aparıldığından və bu sahədə beynəlxalq əməkdaşlığa mühüm əhəmiyyət verildiyindən həmin təşəbbüs dəstəklənmiş və ölkəmiz bu mötəbər qurumun həmtəsisçilərindən olmuşdur.

Bizim Assosiasiya bütün qitələrdən olan korrupsiyaya qarşı orqanları birləşdirən yeganə qlobal strukturdur. BMT tərəfindən dəstəklənən bu təşəbbüs qlobal təqdirə layiq görülmüş və kifayət qədər tələbli olmuşdur.

Bu baxımdan təəccüblü deyil ki, IAACA qısa müddət ərzində populyarlıq əldə etmiş, dünyanın 140 ölkəsini birləşdirmişdir və bu gün 10-cu yubiley konfransını keçirir. Bundan əlavə, bir çox seminar və treninqlər keçirilmişdir. Assosiasiyanın tədbirlərində minlərlə nümayəndələr, o cümlədən hətta dövlətlərin prezidentləri, hökumət başçıları və üzvləri iştirak etmişlər.

IAACA-nın ideyası yanaşmaları unifikasiya etmək, antikorrupsiya təhsilini yüksəltmək, korrupsiyaya qarşı qurumların səylərini səfərbər etməklə bu bəlaya qlobal səviyyədə layiqli beynəlxalq mübarizə aparmaq və bununla da UNCAC-ın effektiv implementasiyasına kömək etməkdir. Bildiyiniz kimi, məhz bu məqsəd, dünən Ümumi Yığıncaqda təsdiq olunmuş IAACA-nın Azərbaycanın da bir çox təklifləri nəzərə alınmaqla yenilənmiş Konstitusiyasında nəzərdə tutulmuşdur.

Korrupsiyaya qarşı mübarizədə səylərin birləşdirilməsinin yeni gözəl simvolu olan, burada Vyanadakı BMT-nin Ofisinin qarşısında gördüyümüz təmiz əli təsvir edən "Korrupsiyaya yox" heykəlidir. Qətərli dostlarımızın bu gözəl təşəbbüsü Cenevrədə də uğurla davam etdirilmiş və ötən ay Malayziyada IAACA-nın keçirilmiş İcraiyyə Komitəsinin iclası ilə yanaşı, xüsusi qonaq qismində bəzilərimiz həmin heykəlin açılışında da iştirak etmişdir.

Burada artıq 16-cı Məqsədin çərçivəsindən kənara çıxırıq və sanki ilk baxışdan korrupsiyaya aid olmayan 2030-cu ilədək Gündəliyin güclü tərəfdaşlıq qurmaqdan bəhs edən 17-ci Məqsədindən irəli gələn hədəfləri icra etmiş oluruq.

**Hörmətli həmkarlar,**

Unutmaq olmaz ki, korrupsiya ilə qlobal mübarizənin effektivliyi üçün, ilk öncə, onun milli səviyyədə təmin edilməsidir. Burada isə əsas şərt güclü siyasi iradənin olmasıdır.

Bu da iqtisadiyyatı sürətlə inkişaf edən ölkələr üçün xüsusilə vacibdir, o cümlədən Azərbaycan üçün. Ona görə ki, Doing Business-2019 hesabatında ölkəmiz dünyanın 10 ən islahatçı dövləti sırasına daxil olmuşdur. Təəccüblü deyil ki, Azərbaycanda ümummilli lider Heydər Əliyevin dövlət inkişafı kursunu uğurla həyata keçirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə korrupsiyaya qarşı mübarizə sahəsində genişmiqyaslı qanunvericilik və institusional islahatlar aparılmışdır.

Yeri gəlmişkən, know how olan və Azərbaycanın brendinə çevrilmiş ASAN xidmət təcrübəsi ilə bölüşmək istərdim. "Bir qapı" prinsipi ilə vahid binada 40-dək qurum tərəfindən 320 müxtəlif xidmət göstərilir və bu quruma yüz faiz vətəndaş məmnunluğunun olması xidmətin faktiki olaraq məişət korrupsiyasına son qoymasının əyani göstəricisidir. Bu sahədə BMT-nin mükafatına layiq görülmüş müsbət təcrübəmizdən artıq digər ölkələrdə də istifadə olunur ki, bu da şəffaf institutların yaradılması ilə bağlı BMT Gündəliyində 16-cı Məqsədin hədəflərindəndir.

Məlumat üçün bildirim ki, Azərbaycanın BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulduğu nəzərə alınaraq bu sahədə 2030-cu ilədək Gündəlikdən irəli gələn öhdəliklərin icrası ilə bağlı ölkə Prezidentinin Fərmanı ilə Milli Əlaqələndirmə Şurası yaradılaraq fəaliyyət göstərir və orada Ədliyyə Nazirliyi də təmsil olunur.

Eyni zamanda, UNCAC-ın 11-ci maddəsində korrupsiyaya qarşı effektiv mübarizənin

aparılması məqsədilə məhkəmə sistemlərinin rolunun gücləndirilməsi nəzərdə tutulmuşdur. Qeyd olunan maddənin tələbinin icrası çərçivəsində Azərbaycan müsbət nəticələrə nail olmuşdur. Bu, məhkəmələrin müstəqilliyinin möhkəmləndirilməsi, hakimlərin ən şəffaf seçimi, elektron məhkəmə sisteminə keçidlə əlaqədar yüksək texnoloji məhkəmələrin yaradılması, ədalət mühakiməsinə əlçatanlığın və aşkarlığın təmin olunmasıdır. Həmin sahədə nailiyyətlərimiz mötəbər beynəlxalq qurumlar tərəfindən ən yaxşı təcrübələr kimi dəyərləndirilmiş, o cümlədən ölkəmiz Avropa Şurasının "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsinin mükafatçısı olmuş, Azərbaycan nümayəndəsi Avropa Şurasının mühüm təsisatı olan Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Komissiyasının (CEPEJ) prezidenti seçilmişdir. Həmçinin Dünya Bankı tərəfindən bu sahədə innovasiyalara görə nominasiyaların qalibi elan olunmuşdur.

Korrupsiyaya qarşı treninqlərin rolunu nəzərə alaraq, biz həmçinin Avstriyada yerləşən Beynəlxalq Antikorrupsiya Akademiyası (IACA) ilə səmərəli əməkdaşlıq edirik. IACA-nın yüksək keyfiyyətli təhsili nəticəsində məzunlarımız artıq antikorrupsiya sahəsində uğurlu təlimçilərə çevrilmişlər. Düşünürəm ki, bir çox ölkələr artıq bu Akademiyanın səmərəsini görmüşlər.

Azərbaycan UNCAC-ın beynəlxalq əməkdaşlıq barədə IV fəslinin tələblərini həyata keçirməsində nümunə ola bilər. Bildiyiniz kimi, ölkəmiz IAACA-nın rəhbərliyində fəal təmsil olunaraq onun işinə böyük töhfələr verir.

Bununla yanaşı, 170-dən artıq dövləti özündə birləşdirən Beynəlxalq Prokurorlar Assosiasiyası (IAP) çərçivəsində məhz Azərbaycan özü IAP-ın korrupsiyaya qarşı mübarizə aparan ən mühüm vəzifəli şəxslər - prokurorlar üçün antikorrupsiya internet şəbəkəsini aparır ki, bu da müsbət təcrübələrin mübadiləsinə, treninqlər və vebinarların təşkilinə imkan verir.

UNCAC həmçinin, dövlətlərə ekstradisiya və hüquqi yardıma dair ikitərəfli müqavilə belə olmadığı halda əməkdaşlıq üçün tam imkan yaradır. Bu da korrupsionerlərin heç yerdə özlərini təhlükəsizlikdə hiss etmələrinin qarşısını alan təsirli mexanizmdir. Artıq bir çox dövlətlər, o cümlədən Azərbaycan ondan səmərəli istifadə edir.

Mötəbər forumda BMT-nin və bir çox digər nüfuzlu beynəlxalq təşkilatların, 70 dövlətdən nümayəndələrin iştirakını nəzərə alaraq bu yüksək tribunadan istifadə edərək təəssüflə bildirmək istərdim ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində Ermənistan tərəfindən torpaqlarımızın 20 faizi işğal olunmuş, bir milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, 500-dən çox tarixi və mədəni abidələrimiz dağıdılaraq məhv edilmişdir. BMT-nin Təhlükəsizlik Şurasının erməni qoşunlarının torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsinə və bununla bağlı beynəlxalq təşkilatların digər qərarlarına məhəl qoymayan Ermənistan tərəfindən torpaqlarımızın işğalı hələ də davam etdirilir.

**Hörmətli xanımlar və cənablar!**

Yekunda məşhur bir ifadəni nəzərinə çatdırmaq istərdim ki, məsələ korrupsiya həddinə çatanda heç bir kompromisdən söhbət gedə bilməz. Biz onunla bütün mümkün vasitələrlə mübarizə aparmalıyıq. Burada UNCAC xüsusilə mühüm rol oynayır ki, Assosiasiya onun implementasiyası üçün 2030-cu ilədək Gündəliyin hədəflərinə nail olmaq naminə bütün imkanlarından istifadəni davam etdirməlidir.

*Diqqətinizə görə minnətdaram.*

# Məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə ardıcıl tədbirlər davam etdirilir





**Təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş məhkəmə-hüquq islahatları ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilərək məhkəmə sistemi müasirləşdirilir, vətəndaşların ədalət mühakiməsinə əlçatanlığı asanlaşdırılır, müasir İKT-lərin, o cümlədən "elektron məhkəmə" informasiya sisteminin tətbiqinin genişləndirilməsi ilə bağlı mühüm işlər görülür.**

Həmçinin hakim korpusu yeni nəsil hüquqşünaslarla möhkəmləndirilib, mövcud vakansiyaların tam əksəriyyəti komplektləşdirilməklə hakimlərin iş yükü xeyli azaldılıb, işlərə daha keyfiyyətlə və vaxtında baxılmasına şərait yaranıb.

Dövlət başçısının qanunvericilik təşəbbüsü ilə 2018-ci il dekabrın 28-də qəbul olunmuş qanunlarla Mülki Prosessual Məcəllədə və "Məhkəmələr və hakimlər haqqında" Qanunda edilmiş əsaslı dəyişikliklər məhkəmələrə müraciət imkanlarının genişləndirilməsini, məhkəmə icraatının elektron qaydada aparılmasını, vətəndaşların mənafelərinin təmin edilməsi, ədalət mühakiməsinin tezləşdirilməsi məqsədilə məhkəmə prosedurlarının elektronlaşdırılmasını şərtləndirib.

Yeni qanunvericiliyin icrasının təşkili ilə bağlı təxirəsalınmadan tədbirlər müəyyən edilərək həyata keçirilməyə başlanılıb, o cümlədən qanunvericilikdəki yeniliklərin mahiyyətinin dərindən öyrənilməsi və e-məhkəmənin imkanlarından səmərəli istifadə olunmaqla düzgün tətbiqi məqsədilə ali və apellyasiya məhkəmələrinin təlimçi-hakimlərinin iştirakı ilə paytaxtda və respublikanın bütün bölgələrində silsilə təlimlər və hüquqi maarifləndirmə tədbirləri keçirilir.

Eyni zamanda dövlət başçısının güclü siyasi iradəsi ilə ölkəmizdə korrupsiyaya qarşı çox ciddi mübarizə aparılır. Ölkə Prezidenti cənab İlham Əliyev bu günlərdə Nazirlər Kabinetinin ötən ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında bütün sahələrdə şəffaflığın və dürüstlüyün təmin olunması, əsassız tələblərə, sui-istifadə hallarına son qoyulması ilə bağlı qəti tapşırıqlar verib. Dövlət başçısının siyasi iradəsinə uyğun olaraq məhkəmələrin fəaliyyətində də şəffaflığın təmin edilməsi, vətəndaş-məmur münasibətlərinin sağlam meyarlar üzərində qurulması, insanların müraciətlərinə hər zaman həssaslıqla yanaşılması, korrupsiyaya şərait yaradan halların yolverilməzliyi daim diqqətdə saxlanılır. Bu məqsədlə paytaxtda və bölgələrdə bütün apellyasiya və birinci instansiya məhkəmələri sədrlərinin və hakimlərinin iştirakı ilə geniş

müşavirələr keçirilərək ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə tədbirlər, məhkəmə fəaliyyətində mövcud problemlər, yol verilən nöqsanlar və onları doğuran səbəblər ətraflı təhlil olunub.

Növbəti belə tədbir yanvarın 16-da Məhkəmə-Hüquq Şurasında Ali Məhkəmənin hakimlərinin iştirakı ilə keçirilib.

Tədbirdə Məhkəmə-Hüquq Şurasının sədri, ədliyyə naziri Fikrət Məmmədov və Ali Məhkəmənin sədri Ramiz Rzayev çıxış edərək bildiriblər ki, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə məhkəmə sistemində aparılan ardıcıl və məqsədyönlü islahatlar bu sahədə işin müasir tələblər səviyyəsində qurulmasına, məhkəmələrə ictimai etimadın yüksəldilməsinə yönəlib.

Qeyd olunub ki, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsində, ədalət mühakiməsinin effektivliyinə nail olunmasında, vahid məhkəmə təcrübəsinin formalaşmasında Ali Məhkəmə mühüm rol oynayır. Ona görə bu məhkəmədə məhz hazırlıqlı, ən peşəkar, yüksək mənəvi keyfiyyətlərə malik hakimlər işləməlidirlər ki, qanunun aliliyi, məhkəmə qərarlarının ədalətliliyi təmin olunsun. Bu məsələdə hakimlərin fəaliyyətinin prinsipial qiymətləndirilməsi institutunun tətbiqinin mühüm əhəmiyyəti vurğulanıb.

Müşavirədə insanların haqlı narazılığını doğuran nöqsan və çatışmazlıqların aradan qaldırılması, Hakimlərin Etik Davranış Kodeksinin tələblərinə dönmədən əməl edilməsi, qeyri-prosessual münasibətlərin qarşısının alınması, antikorrupsiya mədəniyyətinin yüksəldilməsi, neqativ halların yolverilməzliyi qeyd edilib.

Həmçinin mövcud problemlərin həlli yolları təhlil olunub, vətəndaşların hüquq və azadlıqlarının təmin olunması, süründürməçiliyə və korrupsiyaya şərait yaradan hallara yol verilməməsi, ədalət mühakiməsinə ictimai etimadın artırılması ilə bağlı və digər tövsiyələr verilib.

# Ədliyyə naziri Ağdaşda vətəndaşları qəbul edib

**Ölkə Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.**

Yanvarın 7-də ədliyyə naziri Fikrət Məmmədov Ağdaş rayonu Heydər Əliyev Mərkəzində Ağdaş, Yevlax və Ucar rayonlarından olan vətəndaşların qəbulunu keçirib.

Qəbuldan əvvəl nazir ulu öndər Heydər Əliyevin Ağdaş rayonunda abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyub, əziz xatirəsinə dərin ehtiramını bildirib.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib. Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Səfər zamanı ədliyyə naziri, həmçinin yerli ədliyyə və məhkəmə orqanlarının fəaliyyəti və iş şəraiti ilə tanış olub, ədliyyə işçiləri və hakimlərlə müşavirə keçirib.

Dövlət başçısının ədliyyə və məhkəmə sisteminin inkişafına diqqət və qayğısından bəhs edən nazir ölkə Prezidentinin 2018-ci il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər Dövlət Proqramı"nın ədliyyə və məhkəmə sistemi üçün "yol xəritəsi" olduğunu, bu mühüm sənədin işin müasirləşdirilməsi məqsədilə qanunvericiliyin təkmilləşdirilməsi, innovativ texnologiyaların və elektron sistemlərin geniş tətbiqi, şəffaflığın artırılması və digər prioritetləri müəyyən etdiyini vurğulayıb, bununla bağlı qarşıda duran vəzifələri diqqətə çatdırıb.

Eyni zamanda ölkə rəhbəri-

nin qanunvericilik təşəbbüsü ilə 2018-ci il dekabrın 28-də qəbul edilmiş Mülki Prosessual Məcəllədə və "Məhkəmələr və hakimlər haqqında" Qanunda əsaslı dəyişikliklər barədə yeni qanunların məhkəmə fəaliyyətinin təkmilləşdirilməsinə, işin səmərəliliyinin və keyfiyyətinin artırılmasına, iş yükünün azaldılmasına, "elektron məhkəmə" sistemi geniş tətbiq olunmaqla işlərə daha operativ baxılmasına xidmət etdiyi vurğulanıb, qanunvericiliyin yeni müddəalarının dərindən öyrənilməsinin və düzgün tətbiqinin zəruriliyi qeyd olunub.



Müşavirədə həmçinin məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, etik davranış qaydalarına dönmədən əməl olunması, korrupsiyaya şərait yaradan halların yolverilməzliyi diqqətə çatdırılaraq tövsiyə və tapşırıqlar verilib.

# Ədalət mühakiməsinin səmərəliliyinin artırılması diqqət mərkəzindədir

**Ədalət mühakiməsinin səmərəliliyinin artırılması ilə bağlı həyata keçirilən tədbirlər çərçivəsində dövlət başçısının qanunvericilik təşəbbüsü ilə 2018-ci il 28 dekabr tarixdə Azərbaycan Respublikasının Mülki Prosessual Məcəllәsində və "Məhkəmələr və hakimlər haqqında" Qanunda əsaslı dəyişiklikləri nəzərdə tutan yeni qanunlar qəbul olunub.**

Məhkəmə fəaliyyətinin təkmilləşdirilməsində, işin səmərəliliyinin və keyfiyyətinin artırılmasında, iş yükünün azaldılmasında, "elektron məhkəmə" sisteminin tətbiqinin genişləndirilməsində müstəsna əhəmiyyət kəsb edən qanunvericiliyə edilmiş mütərəqqi dəyişikliklər, həmçinin məhkəmələrdə şəffaflığın və aşkarlığın artırılmasına, işlərə daha operativ baxılmasına, vətəndaşların hüquqlarının təmin olunmasına xidmət edəcəkdir.

Yeni qanunvericiliyin icrası ilə bağlı məsələlər təxirəsalınmadan ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə keçirilmiş müşavirədə müzakirə olunub.

Müşavirədə qarşıda duran vəzifələrin, o cümlədən qanunvericiliyin yeni müddəalarının dürüst və vaxtında icrasının təmin olunması, onların mahiyyətinin dərindən öyrənilməsi və e-məhkəmənin imkanlarından səmərəli istifadə olunmaqla düzgün tətbiqi, bu məqsədlə Ədliyyə Akademiyası ilə birgə ali və apellyasiya məhkəmələrinin təlimçi hakimlərinin iştirakı ilə paytaxtda və respublikanın bütün bölgələrində silsilə təlimlərin və hüquqi maarifləndirmə tədbirlərinin keçirilməsi müəyyən olunub. Eyni zamanda, normativ-hüquqi aktların yeni qanunvericiliyə uyğunlaşdırılması, məhkəmə fəaliyyətini tənzimləyən sənədlərin təkmilləşdirilməsi ilə bağlı və digər konkret göstərişlər verilib.

Həmçinin məsələ ilə bağlı yaradılmış işçi qrupa qarşıda duran vəzifələrin icrası ilə bağlı xüsusi tədbirlərin planının hazırlanması tapşırılıb.

# Məhkəmə fəaliyyətinə dair qanunvericiliyin yeni müddəaları öyrənilir

**Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə ardıcıl tədbirlər davam etdirilir, məhkəmə sistemi müasirləşdirilir, vətəndaşların məhkəmələrə əlçatanlığı asanlaşdırılır, işlərə daha çevik və keyfiyyətlə baxılması, məhkəmələrdə aşkarlığın artırılması və elektron məhkəmə sisteminin tətbiqinin genişləndirilməsi ilə bağlı mühüm işlər görülür.**



Ədliyyə Nazirliyində təlim

Dövlət başçısının qanunvericilik təşəbbüsü ilə 2018-ci il dekabrın 28-də qəbul olunmuş qanunlarla Mülki Prosessual Məcəllədə və "Məhkəmələr və hakimlər haqqında" Qanunda edilmiş əsaslı dəyişikliklər məhkəmə fəaliyyətinin təkmilləşdirilməsinə və müasirləşdirilməsinə, məhkəmə icraatının elektron qaydada aparılmasına, operativliyin və şəffaflığın təmin olunmasına, vətəndaşların məhkəmələrə müraciət imkanlarının genişləndirilməsinə xidmət edir.

Ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə keçirilmiş müşavirədə yeni qanunvericiliyin icrasının təşkili üzrə tədbirlər təxirəsalınmadan müzakirə olunaraq məhkəmə fəaliyyətinin müasir tələblər səviyyəsində daha səmərəli qurulması qeyd edilib, bununla əlaqədar xüsusi işçi qrup yaradılıb, tədbirlər planı hazırlanıb, silsilə təlimlərin və digər maarifləndirmə tədbirlərinin keçirilməsi müəyyən edilib.



Bakı Apellyasiya Məhkəməsində təlim

Tədbirlər planına uyğun olaraq yanvarın 8-də Ədliyyə Nazirliyində qanunvericiliyin yeni müddəalarının öyrənilməsi və düzgün tətbiq edilməsi məqsədilə hakimlər üçün təlim keçirilib.

Təlimə respublikanın bütün apellyasiya məhkəmələrinin və aidiyyəti kollegiyalarının, inzibati-iqtisadi və paytaxtın rayon məhkəmələrinin sədrləri cəlb olunub. Tədbirdə nazirliyin, o cümlədən Ədliyyə Akademiyasının, habelə Məhkəmə-Hüquq Şurasının məsul işçiləri

də iştirak ediblər.

Tədbirin açılışında çıxış edən Akademiyanın rəhbəri Elçin Xələfov qanunvericilikdəki yeniliklərdən bəhs edərək onların məhkəmə fəaliyyətinin "Elektron məhkəmə" informasiya sistemi tətbiq olunmaqla səmərəliliyinin artırılmasına, məhkəmə prosesi iştirakçılarının hüquq və vəzifələrinin daha asan və operativ həyata keçirilməsinə xidmət etdiyini vurğulayıb, qanunun düzgün tətbiqində hazırkı təlimin əhəmiyyətini qeyd edib.

Ali və Bakı apellyasiya məhkəmələrinin təlimçi-hakimləri tərəfindən yeni qanunların mahiyyəti, bununla bağlı hakimlərin üzərinə düşən vəzifələr dinləyicilərə aşılanıb. Bildirilib ki, dəyişikliklərə əsasən mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının elektron qaydada aparılması, bu zaman proses iştirakçılarına məhkəmə sənədlərinin "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə (elektron poçt, SMS, elektron kabinet və s.) dərhal çatdırılması, dövlət rüsumlarının sadələşdirilmiş qaydada elektron ödəniş sistemi vasitəsilə ödənilməsi nəzərdə tutulur. Eyni zamanda, yeni qanunvericiliklə vətəndaşların mənafelərinin təmin edilməsi, ədalət mühakiməsinin tezləşdirilməsi məqsədilə bəzi kateqoriya işlərə baxılmasının və qərarların daha tez qüvvəyə minməsinin sadələşdirilmiş məhkəmə prosedurları, habelə məhkəmə statistikasının elektronlaşdırılması və digər mühüm yeniliklərin tətbiqi təsbit olunub.



Sumqayıt Apellyasiya Məhkəməsində təlim

Təlimdə qanunvericiliyin yeni müddəaları dərindən təhlil olunaraq praktikada yaranacaq kazusların həlli yolları müzakirə edilib, faydalı fikir mübadiləsi aparılıb, hakimləri maraqlandıran suallara aydınlıq gətirilib.

Sonra yeni qanunların düzgün tətbiqi ilə bağlı prezentasiya keçirilərək məhkəmə fəaliyyətinin səmərəliliyinin artırılmasında "Elektron məhkəmə" informasiya sisteminin imkanları, o cümlədən vahid məhkəmə portalı, vətəndaşların şəxsi kabineti, dövlət rüsumlarının elektron ödəniş sistemi, elektron icra sistemi və s. nümayiş etdirilib.

Dinləyicilər üçün qanunun düzgün tətbiqində böyük əhəmiyyət kəsb edən belə təlimlər bütün apellyasiya məhkəmələrində, onların yurisdiksiyasına daxil olan məhkəmələrin hakimlərinin iştirakı ilə keçirilib, o cümlədən video-konfranslar təşkil olunub.



Şəki Apellyasiya Məhkəməsində təlim

# Ötən ilin yekunlarına həsr olunmuş müşavirələr keçirilib






**Yanvarın 18-də Ədliyyə Nazirliyi Penitensiar xidmətinin 2018-ci ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.**

Müşavirədə Xidmətin Baş idarəsinin, eləcə də tabe qurumların rəhbər heyəti və Ədliyyə Nazirliyinin məsul əməkdaşları iştirak ediblər.

Ədliyyə nazirinin müavini-Penitensiar xidmətin rəisi Ceyhun Həsənov müşavirəni açaraq ötən il penitensiar sahədə əldə olunmuş nailiyyətlər və qarşıda duran hədəflər barədə ətraflı məlumat verib, ölkə başçısının cəza-icra fəaliyyətini tənzimləyən fərman və sərəncamlarının icrasının nəzarətdə saxlanıldığını, həbs edilmiş şəxslərin, məhkumların saxlanma şəraitinin yaxşılaşdırılmasına, fəaliyyətin səmərəliliyinin artırılmasına, nizam-intizamın möhkəmləndirilməsinə xüsusi diqqət yetirildiyini bildirib. Penitensiar xidmətin yüksək peşəkar kadr korpusunun formalaşdırılması, əməkdaşların peşəkarlıq səviyyəsinin yüksəldilməsi və kadr işinin təkmilləşdirilməsi məqsədilə müvafiq tədbirlərin 2018-ci ildə də davam etdirildiyi nəzərə çatdırılıb. Əsas diqqətin fəaliyyətdə şəffaflığın artırılmasına, korrupsiya və vəzifədən sui-istifadə kimi neqativ hallarla mübarizəyə yönəldildiyi qeyd olunub.

Nazir müavini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda qaldırılan məsələləri, o cümlədən ötən dövr ərzində ölkəmizin əldə etdiyi uğurlu nəticələri və aparılan iqtisadi islahatları müşavirə iştirakçılarının diqqətinə çatdırıb. Keçən ilin iqtisadi inkişaf baxımından uğurlu olduğu, şəffaflığı tam təmin etmək və xoşagəlməz hallara qarşı mübarizəni gücləndirmək istiqamətində mühüm addımlar atıldığı bildirilib.

Sonra xidmətin 2018-ci il ərzindəki fəaliyyətinin yekunlarına dair hesabat məruzəsi dinlənilib.

Bildirilib ki, dövlət başçısının "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 2017-ci il 10 fevral tarixli Sərəncamın icrası üzrə ardıcıl tədbirlər davam etdirilib.

11 aprel 2018-ci il tarixdə Azərbaycan Respublikası Prezidentinin seçkilərinin şəffaf və demokratik şəraitdə keçirilməsi tam təmin edilib, heç bir qanun pozuntusu qeydə alınmayıb.

Əvvəlki illərdə olduğu

kimi, ölkə başçısının humanist siyasəti davam etdirilərək, 24 may tarixində 634 məhkumun, o cümlədən azadlıqdan məhrum etmə cəzasını çəkən 607 məhkumun əfv edilməsi ilə bağlı Sərəncam vaxtında və dürüst icra edilib.

Dövlət başçısının təşəbbüsü ilə 20 oktyabr 2017-ci il tarixdə Cinayət Məcəlləsinə edilmiş dəyişikliklərlə bağlı qəbul olunmuş Qanunun icrası ilə bağlı 2018-ci il ərzində penitensiar müəssisələrdə cəza çəkən 6011 məhkum barədə müvafiq sənədlər məhkəmələrə təqdim edilib, 647 məhkum cəza çəkməkdən azad olunub, 2319 məhkumun cəza müddəti azaldılıb, 851 məhkumun cəzaçəkmə rejimi dəyişdirilib.

Cəzadan şərti olaraq vaxtından əvvəl azad olunma, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi məqsədilə məhkəmələrə təqdim edilən sənədlərin hazırlanması işində mövcud nöqsanların aradan qaldırılması ilə bağlı ədliyyə naziri tərəfindən verilmiş tapşırıqların icrası üzrə tədbirlər görülüb. Yeni fəaliyyətə başlayan Komissiyanın artıq 24 iclası keçirilib, 818 məhkumun müraciətlərinə baxılaraq onlardan 363-nə müsbət rəy verilib.

2018-ci il ərzində həyata keçirilmiş axtarış-baxış tədbirləri nəticəsində həbs edilmiş şəxslərdən və məhkumlardan 1770 manat məbləğində pul, 96 mobil telefon, 139,327 qram narkotik və psixotrop maddələr aşkar edilərək götürülüb və həmin faktlar üzrə toplanmış materiallar hüquqi qiymət verilməsi üçün aidiyyəti hüquq-mühafizə orqanlarına təqdim olunub.

Digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyət nəticəsində 579 müxtəlif cinayətin üstünün açılmasına köməklik göstərilib. Penitensiar xidmətin əməliyyat aparatının məlumatları əsasında daxili işlər orqanları ilə birgə keçirilən əməliyyat tədbirləri nəticəsində həbs edilmiş şəxslər və məhkumlar tərəfindən könüllü olaraq təqdim edilmiş 7 ədəd odlu silah götürülərək aidiyyəti orqanlara təhvil verilib.

Tərbiyə işinə, xüsusilə məhkumların asudə vaxtlarının səmərəli təşkilinə, onlarla sosial yönümlü işə aidiyyəti dövlət qurumlarının, o cümlədən qeyri-hökumət təşkilatlarının cəlb olunmasına xüsusi diqqət yetirilib. Məhkumlarda qanuna itaətin həvəsləndirilməsi, tolerantlıq prinsipləri, birgəyaşayış ənənələrinə hörmət və ehtiramın formalaşdırılması istiqamətində seminar-treninqlər keçirilib.

Hesabat dövründə Baş idarədə və tabe qurumlarda təmir-abadlıq işləri davam etdirilib, bir sıra müəssisələrdə təbii qazla təchizat problemi tamamilə həll edilib, işıq, qaz və su sərfiyyatında israfçılığa yol verilməyib.

Müşavirədə Penitensiar xidmətin cəzaçəkmə müəssisələrinin rəhbərlərinin çıxışları dinlənilib.

Yekunda əldə olunan müsbət nailiyyətlərlə yanaşı, fəaliyyətdə nöqsan və çatışmazlıqların da mövcud olduğu qeyd edilib, məhkumların və təqsirləndirilən şəxslərin hüquqlarının daha etibarlı təmini, əməliyyat-axtarış və təhlükəsizlik tədbirlərinin gücləndirilməsi, rejim və davranış qaydalarına dönmədən riayət olunması, qanunsuz əşyaların ötürülməsi və dövriyyəsinin qarşısının alınması məqsədilə preventiv tədbirlərin həyata keçirilməsinə dair müvafiq tapşırıqlar verilib.

Yanvarın 25-də Ədliyyə Nazirliyində icra və probasiya xidmətlərinin bütün yerli qurumlarının, habelə nazirliyin müvafiq idarələrinin rəhbərlərinin, cinayət işləri üzrə ibtidai istintaqı aparan müstəntiqlərin iştirakı ilə 2018-ci ildə məhkəmə və digər orqanların qərarlarının, o cümlədən azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaların icrası, ədalət mühakiməsi əleyhinə və bəzi digər cinayət-





lərin istintaqının aparılması sahəsində görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş müşavirə keçirilib.

Tədbiri giriş sözü ilə açan ədliyyə nazirinin müavini Vilayət Zahirov ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın 2018-ci ildə hərtərəfli tərəqqisinin təmin olunduğunu və yüksək nailiyyətlərin qazanıldığını vurğulayıb, ədliyyə fəaliyyətinin müasirləşdirilməsi üzrə ardıcıl islahatların davam etdirildiyini qeyd edib, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına, cəza siyasətinin humanistləşdirilməsinə dair dövlət başçısının tapşırıqlarının icrası çərçivəsində məhkəmə qərarlarının, azadlıqdan məhrumetməyə alternativ cəzaların icrası sahəsində işin təkmilləşdirilməsi üzrə görülən işlərdən, həmçinin "Azərbaycan Respublikasının İcra Məcəlləsi"nin layihəsinin hazırlanması üzrə İcra baş idarəsində yaradılmış işçi qrupu tərəfindən qısa müddətdə əldə edilmiş nəticələrdən danışıb.

Sonra İcra baş idarəsinin rəisi - baş icra məmuru Nurəddin Mustafayev, Probasiya xidmətinin rəisi - baş probasiya məmuru Akşin Ziyadov və İstintaq idarəsinin rəisi Zakir Qafarov hesabat məruzəsi ilə çıxış ediblər.

Bildirilib ki, əhalinin məhkəmələrə inamının təzahürü olaraq son illər baxılan işlərin sayının çoxalması ilə Ədliyyə Nazirliyinin mühüm fəaliyyət istiqamətlərindən olan məhkəmə qərarlarının icrası sahəsində də iş həcmi əhəmiyyətli dərəcədə artıb. Belə ki, 2018-ci ildə icra qurumlarına daxil olan icra işlərinin sayı 873 minə çatıb, onlardan 450 mindən çoxunun icrası təmin edilib, qalan işlərin icrası üzrə tədbirlər davam etdirilir. Görülən tədbirlər nəticəsində hüquqi və fiziki şəxslərə əvvəlki illə müqayisədə 2 dəfədən artıq - 1.1 milyard manatdan çox vəsait ödətdirilib.

Məhkəmə qərarlarının icrasından qərəzli boyun qaçıran 6.775 şəxs inzibati məsuliyyətə cəlb olunub, o cümlədən 2.913 şəxs məhkəmələr tərəfindən inzibati qaydada həbs olunub, 446 şəxs barəsində cinayət işi başlanılıb. Ölkədən getmək hüququ müvəqqəti məhdudlaşdırılan belə şəxslərdən 4.885 nəfərin isə məhkəmə qərarını icra etdiklərinə görə üzərlərindən məhdudiyyət götürülüb.

Vətəndaşların rahatlığı üçün nazirlik tərəfindən yaradılmış belə məhdudlaşdırmanın olub-olmamasını dərhal öyrənməyə imkan verən elektron xidmətdən istifadənin sayı ilbəil artaraq 2018-ci ildə 1.4 milyona çatıb.

Həmçinin azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaların icrası sahəsində görülmüş işlər barədə məlumat verilib. Diqqətə çatdırılıb ki, yerli probasiya qurumlarının qeydiyyatında olan məhkumların təxminən yarısı - 10.182 nəfər ötən il cəza müddətinin başa çatması, təyin olunmuş cəzanın tam icra olunması ilə əlaqədar və ya qanunla müəyyən edilmiş digər əsaslarla qeydiyyatdan çıxarılıb, cəzanın icrasından boyun qaçıran 527 məhkumun cəzası məhkəmələr tərəfindən digər cəza növü, o cümlədən 46 nəfərin cəzası azadlıqdan məhrumetmə

cəzası ilə əvəz edilib.

Dövlət başçısının cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamı ilə yaradılmış nazirliyin Probasiya xidməti tərəfindən hesabat dövründə işin müasir tələblər səviyyəsində səmərəli təşkili ilə bağlı xeyli işlər görülüb, azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında elektron nəzarət vasitələrinin tətbiqinə başlanılıb, bu məqsədlə Probasiya xidmətində müasir avadanlıqlarla təchiz olunmuş, məhkumları fasiləsiz izləməyə və operativ əlaqə qurmağa imkan verən Elektron monitorinq mərkəzi yaradılıb. 2018-ci ildə azadlıqdan məhrumetməyə alternativ cəzalara, o cümlədən azadlığın məhdudlaşdırılması cəza növünə məhkum olunmuş 605 şəxsə elektron qolbaq tətbiq edilib, cəza müddəti bitən və digər qanuni əsaslara görə məhkumlardan isə qolbaqlar çıxarılıb.

Ölkə başçısının qeyd olunan Sərəncamında verilmiş tapşırığa əsasən ötən il ictimai işlər növündə cəzanın formal icrası təcrübəsinin qarşısının alınması, onun icrasına effektiv nəzarətin həyata keçirilməsi ilə bağlı əməli işlər görülüb, o cümlədən qanunvericilik təkmilləşdirilib, yerli icra hakimiyyəti orqanları ilə daha səmərəli qarşılıqlı fəaliyyət qurularaq, ictimai işlərin həyata keçiriləcəyi iş yerlərinin siyahısı və müvafiq işlər üçün tələb olunan şəxslərin sayı müəyyən edilib, bununla bağlı vəzifələrin yerinə yetirilməməsinə görə vəzifəli şəxslərin məsuliyyəti artırılıb.

2018-ci il ərzində məhkəmənin qərarlarına əsasən 1.030 şəxs ictimai işlər növündə cəzanın və inzibati tənbehin icrasına cəlb edilib, onlardan 603-ü ictimai işlərin müddətinin başa çatması ilə əlaqədar qeydiyyatdan çıxarılıb. Cərimə və islah işləri cəzalarının icrası ilə bağlı dövlət büdcəsinə ödənilən vəsaitin məbləği 70 faiz artaraq 2.5 milyon manatı ötüb.

Eyni zamanda, cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı 2017-ci il 17 oktyabr tarixli Qanunla Cinayət Məcəlləsində bir çox əməllərin dekriminallaşdırılması nəticəsində probasiya xidmətinin qeydiyyatında olan 1200-dən çox şəxs məhkəmələr tərəfindən cəza çəkməkdən azad edilib və ya cəza müddəti azaldılıb.

Hesabat dövründə nazirliyin İstintaq idarəsinin icraatında olmuş 1.078 cinayət işinin 673-nün ibtidai istintaqı tamamlanıb, onlardan 276-sı alimentin ödənilməsindən qərəzli şəkildə boyun qaçıran şəxslərlə bağlı olub, fiziki və hüquqi şəxslərə vurulmuş 1.9 milyon manatdan çox vəsaitin istintaq zamanı ödətdirilməsinə nail olunub.

İclasda görülən tədbirlərlə yanaşı, nöqsan və çatışmazlıqlar qeyd edilib, mövcud problemlərlə bağlı nazirliyin məsul işçiləri və yerli icra qurumlarının rəhbərləri dinlənilib, nöqsanların səbəb və şəraitinin aradan qaldırılması yolları ətraflı təhlil edilib.

Müşavirəyə yekun vuran nazir müavini ədalət mühakiməsinin həyata keçirilməsində mühüm rol oynayan məhkəmə qərarlarının və azadlıqdan məhrumetməyə alternativ cəzaların vaxtında və dürüst icrasının təmin olunması, məhkəmələrin müəyyən edilmiş fəaliyyət qaydasının düzgün və səmərəli icrasına diqqətin artırılması, "Elektron icra" informasiya sisteminin tətbiqinin və "Elektron sənəd dövriyyəsi"nin genişləndirilməsi, tabe qurumların fəaliyyətinə nəzarətin gücləndirilməsi, habelə istintaq işinin təkmilləşdirilməsi ilə bağlı aidiyyəti tapşırıqlar verib.

Eyni zamanda ictimai işlər və digər cəza növlərinin icrasının səmərəliliyinin artırılması, azadlıqdan məhrumetməyə alternativ cəzalara məhkum olunmuş şəxslərlə tərbiyəvi işin yaxşılaşdırılması, cəza çəkməkdən boyun qaçırma hallarının qarşısının alınması barədə əlavə tədbirlər müəyyən olunub, icra və probasiya qurumlarında könüllülük institutunun təşviq olunması, vətəndaşların müraciətlərinə daim qayğı və həssaslıqla yanaşılması, korrupsiyaya şərait yaradan halların yolverilməzliyi, etik davranış qaydalarına dönmədən əməl olunmasının vacibliyi vurğulanıb.

# Ədliyyə Akademiyasının məlumatları



**Cari ilin 16-18 yanvar tarixlərində Ədliyyə Akademiyasının və Beynəlxalq Miqrasiya Təşkilatının birgə təşkilatçılığı ilə "Cinayət təqibini həyata keçirən orqanlar üçün insan alverinə qarşı mübarizə" mövzusunda üç günlük kaskad təlim təşkil olunub.**

Hakimlər, vəkillər, prokurorluq və daxili işlər orqanları əməkdaşlarının iştirak etdiyi təlimdə Şirvan Apellyasiya və Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimlərinin, Daxili İşlər Nazirliyi İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin nümayəndəsinin və Vəkillər Kollegiyası üzvünün təqdimatları dinlənilib.

Təlim iştirakçılarına insan alveri və digər cinayətlər arasında fərq yaradan milli aspektlər, bu sahədə beynəlxalq hüquqi çərçivə və əsas hüquqi anlayışlar, yerli təcrübədə insan alveri üzrə beynəlxalq anlayışların tətbiqində yaranan problemlər, qurbanlar və qurban olmaq riski, cinayətdə qurbanlar və cinayət iştirakçıları arasındakı fərqlər, miqrantlar və insan alveri qurbanları, uşaq alverinin xüsusiyyətləri, dövlət, qeyri-hökumət və beynəlxalq təşkilatların rolu, prosessual tədbirlər, Avropa İnsan Hüquqları Məhkəməsinin presedentləri və digər bu kimi aktual mövzularda ətraflı məlumatlar verilib.

Beynəlxalq Miqrasiya Təşkilatı ilə birgə, həmçinin yanvarın 22-24-də Gəncə şəhərində "Beynəlxalq miqrasiya hüququ" mövzusunda təlim keçirilib.

Hakim və vəkillərin iştirak etdiyi tədbirdə beynəlxalq miqrasiya hüququnun əsas elementləri/subyektləri, mənbələri, hüquqi və normativ çərçivəsi, insan alveri transmilli cinayət kimi, beynəlxalq miqrasiya hüququ standartlarının tətbiqində hüquq-mühafizə orqanlarının, məkhəmələrin və vəkillik institutunun rolu, dövlətlərin miqrasiya ilə bağlı səlahiyyətləri və beynəlxalq miqrasiya hüququ tərəfindən qoyulan məhdudiyyətlər, ölkəyə daxil olma və qalmanın tənzimlənməsi, ölkədən çıxışın tənzimlənməsi, sərbəst hərəkət azadlığının təmin edilməsi, şəxsi toxunulmazlıq, qaçqın və məcburi köçkünlər, qadın və uşaq miqrantlar və s. mövzular tədris olunub.

Təlimlərdə mövzular ətrafında faydalı müzakirələr keçirilib, səhnələşdirilmiş istintaq və məhkəmə prosesi, video materiallar nümayiş olunub və qruplar üzrə iş aparılıb, təlim iştirakçılarına müxtəlif tapşırıqlar verilib.

**Yanvarın 22-23-də Ədliyyə Akademiyasında Beynəlxalq Qızıl Xaç Komitəsi ilə birgə "Beynəlxalq humanitar hüquq pozuntularının cinayət**

**hüququ çərçivəsində təqibi: milli, regional və beynəlxalq perspektivlər" mövzusunda hakimlər və prokurorlar üçün təlim keçirilib.**

Hakimlərin, prokurorluq orqanlarının və Akademiyanın əməkdaşlarının iştirak etdiyi təlimdə BQXK-nın Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Elena Aymone Sessera və Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov açılış nitqi ilə çıxış edib, təlimin əhəmiyyətindən danışıblar.

Təlim zamanı Moldova Dövlət Universiteti Cinayət Hüququ kafedrasının müdiri, sabiq ədliyyə naziri Vladimir Qrosu, Bosniya və Herseqovina Məhkəməsinin hakimi Lejla Konjic Dragoviç, BQXK-nın Rusiya Federasiyası, Belarus və Moldova Respublikaları üzrə Nümayəndəliyinin regional hüquq məsləhətçisi Anastasiya Kuşleyko, BQXK-nın ölkəmizdəki Nümayəndəliyinin məsul əməkdaşları, həmçinin Milli Məclis Aparatı İnzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Nizami Səfərovun təqdimatları dinlənilib.

İştirakçılara beynəlxalq humanitar hüququn pozulmasına görə cinayət təqibi üzrə milli qanunvericilik çərçivəsinin analizi: beynəlxalq hüquq və milli qanunvericilik, bu sahədə cinayət təqibi mexanizmlərinin növləri, BQXK-nın fəaliyyəti və mandatının xüsusi məqamları, məhkəməöncəsi istintaq: milli və beynəlxalq təcrübə, məhkəmə qərarlarının praktiki aspektləri: milli və beynəlxalq təcrübə kimi məsələlər barədə məlumat verilib.



Yekunda iştirakçılara sertifikat təqdim olunub.

**Yanvarın 25-də Ədliyyə Akademiyasında məhkəmə aparatı işçiləri üçün "Məhkəmə fəaliyyətinin səmərəliliyinin artırılmasına yönəlmiş tədbirlər" mövzusunda təlim keçirilib.**

Bakı Apellyasiya Məhkəməsinin yurisdiksiyasına aid olan rayon və inzibati-iqtisadi məhkəmələrdən 30-a yaxın məhkəmə aparatı işçilərinin cəlb olunduğu təlimdə Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) alətlərinin və standartlarının anlayışı və onların məhkəmələrin səmərəli idarə edilməsində rolu, Mülki Prosessual Məcəllədə dəyişiklik edilməsinə dair Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli Qanunu, elektron məhkəmə sistemindən məhkəmələrdə səmərəli istifadə məsələləri, dövlət qulluqçularının korrupsiyaya qarşı davranışı və maraqların toqquşması mövzularında mühazirələr oxunub, dinləyiciləri maraqlandıran məsələlər ətrafında faydalı fikir mübadiləsi aparılıb.

## "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2018-ci 1 may tarixli 1099-VQD nömrəli və "Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2018-ci 1 may tarixli 1110-VQD nömrəli qanunlarının icrası ilə əlaqədar **qərara alır:**

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 1, maddə 8; 2005, N 1, maddə 1, N 8, maddə 700; 2006, N 2, maddə 70; 2008, N 2, maddə 49; 2010, N 4, maddə 265; 2012, N 1, maddə 2, N 7, maddə 651; 2013, N 12, maddə 1479; 2014, N 2, maddə 78, N 7, maddə 769, N 11, maddə 1356, N 12, maddə 1526; 2015, N 11, maddə 1259; 2016, N 4, maddə 644, N 10, maddə 1606; 2017, N 5, maddələr 709, 724, N 10, maddə 1775) aşağıdakı dəyişikliklər edilsin:

1. 12.8.3-1-ci maddədən "fəaliyyətinin dayandırılması və bərpa edilməsi," sözləri çıxarılsın.

2. Aşağıdakı məzmunda 12.8.3-2-ci maddə əlavə edilsin:

"12.8.3-2. siyasi partiyaların, həmkarlar ittifaqlarının, qeyri-hökumət təşkilatlarının və xarici qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyətinin dayandırılması və bərpa edilməsi barədə məlumatlar;".

3. 14.2.3-cü maddəyə "fəaliyyət ərazisi," sözlərindən sonra "fəaliyyətinin dayandırılması və bərpa edilməsi," sözləri əlavə edilsin.

4. 14.2.4-cü maddəyə "barədə" sözündən əvvəl ", fəaliyyətinin dayandırılması və bərpa edilməsi" sözləri əlavə edilsin.

5. 14.2.5-ci maddədən ", habelə fəaliyyətinin dayandırılmasına və bərpa edilməsinə dair" sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 18 dekabr 2018-ci il*
*N 1396-VQD*

## Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 2-ci, 3-cü, 4-cü və 7-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Seçki Məcəlləsində (Azərbaycan Respublikasının Qanun-

vericilik Toplusu, 2003, N 6, maddə 274, N 12 (I kitab), maddə 680; 2004, N 6, maddə 416, N 11, maddə 891; 2005, N 2, maddə 62, N 4, maddə 278, N 7, maddələr 576, 584, N 12, maddə 1091; 2007, N 7, maddə 712; 2008, N 6, maddə 457; 2009, N 2, maddə 44; 2010, N 4, maddə 276, N 7, maddə 592; 2011, N 3, maddə 163; 2012, N 5, maddə 409; 2013, N 6, maddə 592; 2015, N 5, maddə 490; 2017, N 5, maddə 705; 2018, N 1, maddə 4, N 3, maddə 389) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.1.23-cü maddəyə, 33.1-ci maddənin ikinci cümləsinə və 38.1-ci maddənin birinci cümləsinə "qərarının" sözündən sonra "(sərəncamının)" sözü əlavə edilsin.

2. 8-ci maddə üzrə:

2.1. maddənin adında "elan" sözü "təyin" sözü ilə əvəz edilsin;

2.2. 8.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"8.1. Seçkilərin (referendumun) təyin edilməsi haqqında qərar (sərəncam) səsvermə gününə azı 60 gün qalmış rəsmi dərc edilir.".

3. 9.1-ci maddədə "elan olunduğu" sözləri "təyin edilməsi haqqında qərarın (sərəncamın) rəsmi dərc edildiyi" sözləri ilə əvəz edilsin.

4. 40.6-cı və 40.7-ci maddələrin birinci cümlələrində "elan" sözü "təyin edilməsi haqqında qərarın (sərəncamın) rəsmi dərc" sözləri ilə əvəz edilsin.

5. 41.3-cü maddədə "seçkilər (referendum) elan olunduğu" sözləri "seçkilərin (referendumun) təyin edilməsi haqqında qərarın (sərəncamın) rəsmi dərc edildiyi" sözləri ilə əvəz edilsin.

6. 44.2-ci maddəyə və 77.3-cü maddənin ikinci cümləsinə "qərar" sözündən sonra "(sərəncam)" sözü əlavə edilsin.

7. 47.2-ci maddədə "elan olunması günündən" sözləri "təyin edilməsi haqqında qərarın (sərəncamın) rəsmi dərc edildiyi gündən" sözləri ilə əvəz edilsin.

8. 58.3-cü maddənin birinci cümləsinə "təyin" sözündən sonra "edilməsi haqqında qərarın (sərəncamın) rəsmi dərc" sözləri əlavə edilsin.

9. 77.2-ci maddənin ikinci cümləsinə, 78.3-cü maddəyə, 81.2-ci maddənin üçüncü cümləsinə, 83.6-cı maddənin ikinci cümləsinə, 84.1-ci maddənin ikinci cümləsinə, 87.2-ci, 89.2-ci, 90.2.5-ci, 90.2.9-cu maddələrə, 97.2.2-ci maddənin ikinci cümləsinə və 111.2-ci maddənin ikinci və üçüncü cümlələrinə "qərarın" sözündən sonra "(sərəncamın)" sözü əlavə edilsin.

10. 123.3-cü maddədə "referendum elan" sözləri "referendumun təyin edilməsi haqqında qərar (sərəncam) rəsmi dərc" sözləri ilə əvəz edilsin.

11. 124.1-ci maddənin birinci cümləsinə "qərarla" sözündən sonra "(sərəncamla)" sözü əlavə edilsin.

12. 145.4-cü və 146.2-ci maddələrdə "qərar" sözü "sərəncam" sözü ilə əvəz edilsin.

13. 178-ci maddə üzrə:

13.1. 178.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"178.1. Bu Məcəllənin 179.2-ci maddəsində müəyyən edilmiş qaydada seçkilərin təyin olunması halları istisna olmaqla, yeddi il əvvəl keçirilən Prezident seçkilərində Prezidentin seçildiyi səsvermənin keçirildiyi ayın ikinci həftəsinin çərşənbə gününə Prezident seçkiləri təyin olunur.";

13.2. 178.2-ci maddədə "elan" sözü "təyin" sözü ilə əvəz edilsin;

13.3. 178.3-cü maddədə "keçirilməsi gününün elan" sözləri "təyin" sözü ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 18 dekabr 2018-ci il*

*N 1397-VQD*

"Məhkəmələr və hakimlər haqqında", "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" və "Notariat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci, 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq, "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1143-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, N 5, maddə 413; 1999, N 5, maddə 284, N 7, maddə 396, N 10, maddə 570; 2001, N 5, maddə 292, N 6, maddə 379, N 7, maddə 455; 2002, N 1, maddə 4, N 12, maddə 706; 2003, N 6, maddə 278; 2004, N 2, maddə 57, N 3, maddə 133, N 4, maddə 199, N 8, maddələr 597, 598, N 9, maddə 669; 2005, N 1, maddə 7, N 8, maddə 686; 2006, N 1, maddə 4, N 12, maddə 1005; 2007, N 5, maddələr 439, 446, N 7, maddə 712, N 11, maddə 1078, N 12, maddə 1222; 2008, N 3, maddə 163, N 7, maddə 609; 2009, N 2, maddə 46, N 11, maddə 878; 2010, N 7, maddə 596, N 10, maddə 842; 2011, N 4, maddə 265; 2013, N 1, maddə 21; 2014, N 2, maddə 85, N 7, maddələr 782, 784; 2015, N 2, maddə 98, N 4, maddə 346, N 5, maddə 483, N 11, maddə 1286; 2016, N 6, maddə 1004, N 11, maddə 1789, N 12, maddə 2033; 2017, N 6, maddə 1034, N 7, maddə 1305, N 11, maddə 1965; 2018, N 1, maddə 12, N 3, maddə 395, N 5, maddə 888, N 7, I kitab, maddə 1442) 2-ci maddəsinə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Ələt azad iqtisadi zonasında mübahisələrin həlli zamanı "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınır.".

**Maddə 2.** "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, N 3, maddə 167; 2001, N 11, maddə 691; 2002, N 12, maddə 706; 2004, N 3, maddə 133; 2005, N 8, maddə 684; 2008, N 2, maddə 49, N 5, maddə 342; 2010, N 11, maddə 937; 2013, N 5, maddə 482; 2017, N 7, maddə 1261; 2018, N 6, maddə 1173) 2-ci maddəsinə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Ələt azad iqtisadi zonasında müəlliflik hüququ və əlaqəli hüquqlar sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.".

**Maddə 3.** "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 10, N 6, maddə 414; 2001, N 5, maddə 293, N 11, maddə 687, N 12, maddə 740; 2002, N 5, maddə 241, N 6, maddə 328, N 12, maddə 706; 2004, N 5, maddə 318; 2005, N 4, maddə 281, N 8, maddə 699, N 10, maddə 903, N 11, maddə 993; 2007, N 1, maddə 4, N 2, maddə 69, N 8, maddə 745, N 11, maddələr 1053, 1075; 2008, N 6, maddə 462, N 7, maddə 602; 2009, N 1, maddə 5, N 7, maddə 517, N 11, maddə 878; 2010, N 7, maddə 597, N 11, maddə 938; 2011, N 4, maddə

258, N 12, maddə 1098; 2012, N 10, maddə 946; 2013, N 11, maddə 1271; 2014, N 11, maddə 1353; 2015, N 5, maddə 487; 2016, N 1, maddə 11, N 7, maddə 1243, N 12, maddə 2025; 2017, N 2, maddə 148, N 12, I kitab, maddə 2236; 2018, N 7, I kitab, maddə 1388, N 8, maddə 1673; Azərbaycan Respublikasının 2018-ci il 15 noyabr tarixli 1334-VQD nömrəli Qanunu) 1-ci maddəsinə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Ələt azad iqtisadi zonasında notariat fəaliyyəti "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.".

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 28 dekabr 2018-ci il*
*N 1405-VQD*

## Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunu optimallaşdırmaq və idarə edilməsini təkmilləşdirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Borcunun İdarə Edilməsi Agentliyi ləğv edilsin və onun funksiyaları Nazirliyin Aparatına verilsin.

2. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlıq Agentliyinin əsasında Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyi yaradılsın.

3. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Qiymətli Metallar və Qiymətli Daşlara Nəzarət Dövlət Xidməti ləğv edilsin.

4. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin tabeliyində Gənclərin Problemləri üzrə Elmi Araşdırmalar Mərkəzi ləğv edilsin.

5. Bakı şəhərində, habelə "ASAN xidmət" mərkəzlərinin yerləşdiyi Azərbaycan Respublikasının digər inzibati ərazi vahidlərində "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanının 5-ci hissəsində nəzərdə tutulan dövlət xidmətləri yalnız "ASAN xidmət" mərkəzlərində həyata keçirilsin.

6. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin saxlanılması üçün hər il üçün dövlət büdcəsindən ayrılan vəsaitin (dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) istisna olmaqla) yuxarı həddi Nazirliyin tabeliyindəki qurumların ("AzInTelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti istisna olmaqla) dövlət büdcəsinə ödədiyi dividendin cəmi məbləğinin yuxarı həddi ilə məhdudlaşır.

7. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası:

7.1. hüquq mühafizə və hərbi sahələrdə fəaliyyət göstərən dövlət orqanlarının və qurumlarının fəaliyyətinin daha səmərəli və düzgün təşkili, idarəçiliyinin təkmilləşdirilməsi, eyni və ya oxşar səlahiyyətlərin daha optimal həcmdə resurs

sərf edilməklə həyata keçirilməsi məqsədilə həmin dövlət orqanlarının və qurumlarının sayının, saxlanma xərclərinin və işçilərinin say həddinin optimallaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.2. mərkəzi icra hakimiyyəti orqanlarının, habelə Azərbaycan Milli Elmlər Akademiyasının strukturuna daxil olan (tabeliyindəki) elm, elmi tədqiqat, araşdırma, ixtisasartırma və digər bu kimi sahələrlə məşğul qurumların (institut, mərkəz, təhsil müəssisəsi və s.) fəaliyyətində səmərəliliyi artırmaq və onların idarə edilməsini təkmilləşdirmək üçün təkliflər hazırlanması məqsədilə İşçi Qrup yaradılmasını və müvafiq təkliflərin Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsini altı ay müddətində təmin etsin;

8. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

8.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

8.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

8.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

8.4. bu Fərmanın 5-ci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Vergilər Nazirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, İqtisadiyyat Nazirliyinin, Əmlak Məsələləri Dövlət Komitəsinin, Dövlət Gömrük Komitəsinin, Dövlət Miqrasiya Xidmətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Qida Təhlükəsizliyi Agentliyinin və Milli Arxiv İdarəsinin "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanının 5-ci hissəsində nəzərdə tutulan dövlət xidmətlərini bilavasitə icra edən bölmələrinin ştat vahidlərinin ümumi say həddi daxilində həmin dövlət orqanlarının işçilərinin ümumi say həddinin azaldılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

8.5. Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyindəki Akkreditasiya və Nostrifikasiya İdarəsinin ləğv edilməsinin və onun funksiyalarının Nazirliyin Aparatı vasitəsilə həyata keçirilməsinin təmin edilməsi ilə bağlı bir ay müddətində tədbirlər görsün;

8.6. Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyindəki qurumlarla bağlı aşağıdakı tədbirlərin görülməsini təmin etsin və bu barədə bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

8.6.1. Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun, Azərbaycan Respublikası Təhsil İnstitutunun, İstedadlı Uşaqlarla İş Mərkəzinin və Respublika Elmi-Pedaqoji Kitabxanasının vahid qurumda birləşdirilməsi;

8.6.2. Respublika Bədən Tərbiyəsi Mərkəzinin və "Təhsil" Respublika İdman Mərkəzinin vahid qurumda birləşdirilməsi;

8.7. üç ay müddətində:

8.7.1. mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, dövlət adından yaradılan publik hüquqi şəxslərdə və səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə xidməti nəqliyyat vasitələri ilə təmin edilməli vəzifələrin siyahısını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

8.7.2. bu Fərmanın 8.7.1-ci yarımbəndinə əsasən müəyyən olunacaq siyahıdan kənarda qalan vəzifələrdə işləyən şəxslərə xidmət edən xidməti nəqliyyat vasitələrinin mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, dövlət adından yaradılan publik hüquqi şəxslərin və səhmlərinin (payları-

nın) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin balanslarından çıxarılaraq özəlləşdirilməsi üçün Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə təqdim edilməsini təmin etsin və nəticəsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

8.8. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin və onun yanında Dövlət Xəzinədarlıq Agentliyinin əsasnamələrinin layihələrini, habelə işçilərinin say həddi barədə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

8.9. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

9. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, Qida Təhlükəsizliyi Agentliyi, Milli Arxiv İdarəsi və Dövlət İmtahan Mərkəzi bu Fərmana əsasən ləğv olunan dövlət orqanlarında işləyən dövlət qulluqçularına münasibətdə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 1 iyul tarixli 464 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanları ləğv edilərsə və ya ştatlar ixtisara düşərsə, vəzifə maaşına və ixtisasa uyğun işə düzəlməkdə və ya dövlət orqanlarında tutduğu vəzifəyə uyğun vəzifə tutmaqda dövlət qulluqçusunun "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 21.1.6-cı maddəsində nəzərdə tutulmuş üstünlüyünün həyata keçirilməsi Qaydası"na uyğun olaraq tədbirlər görsünlər.

10. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidməti və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti bu Fərmana əsasən ləğv olunan dövlət qurumlarında (struktur bölmələrində) işləyən işçilərin tabeliklərində olan digər qurumlarda və ya struktur bölmələrində müvafiq vakant vəzifələrə təyin edilməsi ilə bağlı tədbirlər görsünlər və nəticəsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

11. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi:

11.1. mərkəzi icra hakimiyyəti orqanlarının informasiya sistemlərinin inventarizasiyasını və ekspertizasını həyata keçirsin, bu sahədə idarəetmənin təkmilləşdirilməsi və xərclərin optimallaşdırılması, o cümlədən mərkəzi icra hakimiyyəti orqanlarının elektron informasiya sistemlərinin fəaliyyətinin mərkəzləşdirilmiş qaydada Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin DATA mərkəzi vasitəsilə həyata keçirilməsinə dair təkliflərini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

11.2. "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 dekabr tarixli 431 nömrəli Fərmanında onun üçün nəzərdə tutulmuş, habelə növbəti illərin dövlət büdcəsində nəzərdə tutulacaq vəsait həddində dividendin tabeliyindəki qurumlar tərəfindən dövlət büdcəsinə ödənilməsini təmin etsin.

12. Mərkəzi icra hakimiyyəti orqanları bu Fərmanın 11.1-ci bəndindən irəli gələn vəzifələrin icrası ilə bağlı Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə müvafiq şərait yaradılmasını və kömək göstərilməsini təmin etsinlər.

13. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 17 yanvar 2019-cu il*
*N 479*

Azərbaycan Respublikasında 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin zəngin irsi bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsində mühüm əhəmiyyətə malikdir.

Şərq xalqlarının mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yer tutan Nəsimi yaradıcılığı uzun illərdən bəri elmi-ədəbi fikrin diqqət mərkəzindədir. Şairin irsinin ölkəmizdə sistemli tədqiqi və təbliği ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Nəsiminin 600 illik yubileyinin keçirildiyi vaxta təsadüf edir. Böyük söz ustasının 600 illiyinin YUNESKO-nun görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileyləri siyahısına daxil edildiyi və beynəlxalq miqyasda qeyd olunduğu həmin dövrdən etibarən Nəsimi ilə bağlı çox sayda araşdırmalar aparılmışdır. Qüdrətli şairin yaradıcılığının üzə çıxarılan əlyazma nüsxələri əsasında öyrənilməsi Azərbaycan dili və ədəbiyyatı tarixinin tədqiqində yeni mərhələ açmışdır. Nəsiminin əsərləri ölkəmizdə dəfələrlə işıq üzü görmüşdür. Şairin əsərləri Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamına əsasən, kütləvi tirajla nəşr olunaraq ölkə kitabxanalarına hədiyyə edilmişdir.

Ötən illər ərzində Nəsiminin xatirəsinin əbədiləşdirilməsi istiqamətində silsilə tədbirlər həyata keçirilmiş və onun ədəbiyyatda, incəsənətdə parlaq obrazı yaradılmış, eləcə də 1979-cu ildə ölkəmizin paytaxtında heykəli ucaldılmışdır.

2017-ci ilin may ayında Parisdə YUNESKO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyi qeyd edilmiş, 2018-ci ilin sentyabr ayında ölkəmizdə ilk dəfə Nəsimi şeir, incəsənət və mənəviyyat festivalı keçirilmişdir.

2019-cu ildə Nəsiminin anadan olmasının 650 illiyi tamam olur. Azərbaycanın ədəbi-mədəni fikir tarixinin bu əlamətdar hadisəsinin dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" 2018-ci il 15 noyabr tarixli 689 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılmışdır.

Nəsimi irsinin müasir humanitar düşüncənin tələbləri kontekstində aktuallığını, milli mədəni-mənəvi dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyətini nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

2019-cu il Azərbaycan Respublikasında "Nəsimi ili" elan edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 11 yanvar 2019-cu il*
*N 886*